www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 noyabr 2018-ci il Çərşənbə axşamı № 247 (7136) Qiyməti 60 qəpik

**Xəbər**

## Dəm qazı "terroru" yenə başladı - bir ailənin 3 üzvü zəhərləndi

yazısı səh.2-də

**Gündəm**

### Prezident İlham Əliyev Belarusda mühüm açıqlamalar verdi



Azərbaycanla Belarus arasında 10-a yaxın əhəmiyyətli sənəd imzalandı

yazısı səh.5-də

### Dövlət büdcəsini "xortumlayan" və azadlıqda gəzən məmurlar...

yazısı səh.10-da

### "BŞİH-in əvvəlki səlahiyyətləri bərpa olunmalıdır" - Əzim Məsimov

yazısı səh.7-də

### Milli Dirçəliş Günü ilə bağlı ziddiyyətli fikirlər

yazısı səh.3-də

### Gələn il pambıq əkini sahəsi azaldılacaq

yazısı səh.4-də

### Rəsul Quliyev yenə "qayıdır"

yazısı səh.12-də

### İçdiyimiz suyun müəmmalı tərkibi - krantlarda toplanan zibillər...

yazısı səh.4-də

### Bakı daha bir beynəlxalq konfransa ev sahibliyi edəcək

yazısı səh.7-də

### İşini itirən vəzifəliləri xəstələndirən səbəblər

yazısı səh.14-də

### Suriya hökuməti İdlibdə əməliyyata hazırlaşır, Putin razılıq verəcəkmi...

yazısı səh.13-də

### Nazirlik vətəndaşa qoca qoyunlar verilməsi məsələsinə aydınlıq gətirdi

yazısı səh.2-də

### Bakıda ögey qardaşları güllələyən şəxs tutuldu

yazısı səh.14-də

# "RUS NATO-SU"NDA "SOYUQ MÜHARİBƏ" RUZİGARI - BAKININ "KÜLƏYİ" VƏ PETROLU...

Təşkilatda Ermənistana qarşı etimadsızlıq güclənir; səbəb həm də Azərbaycan faktorudur; Paşinyanı ən yaxşı halda məğlubiyyətə bərabər heç-heçə gözləyir; politoloqlar deyir ki...



yazısı səh.8-də

## Azərbaycanda 2018-ci ilin 10 ayında 1.177 ton heroin tutulub - ilginc statistika

**Baş nazirin müavini Əli Həsənov:** "İranla sərhədin 132 km-lik hissəsi nəzarətsiz zonaya çevrilib ki, həmin ərazilərdən də Avropa və digər ölkələrə narkotik vasitələr daşınır"

yazısı səh.3-də



*Əli Əlirzayev:*

### "Vaxtilə nazirlər məni qəbul edirdi, indi mühafizəçi belə görüşmür"

yazısı səh.6-da



### Rusiya xain Fəxrəddin Abboszadənin ekstradisiyasını yubadır

yazısı səh.12-də



### Elxan Süleymanovdan 115 illik məktəbə orijinal hədiyyə

yazısı səh.7-də



## Azərbaycan Belarusdan yenə hərbi texnika alacaq

**Belarus və Azərbaycan növbəti Belarus hərbi texnikası partiyasının ölkəmizə çatdırılması üzrə müqavilə üzərində işləyirlər. Virtualaz.org "BELTA"ya istinadən xəbər verir ki, bunu Belarus prezidenti Aleksandr Lukaşenko ilə danışıqların yekununda Azərbaycan prezidenti İlham Əliyev deyib.**

Bu gün danışıqların yekunu üzrə Belarus Hərbi Sənaye Dövlət Komitəsi ilə Azərbaycan Müdafiə Nazirliyi arasında hava hücumundan müdafiə silah və texnikasının təchizi sahəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barədə qarşılıqlı anlaşma haqqında memorandum imzalanıb.

"Ən qısa müddətdə o, Belarusdan növbəti hərbi texnika partiyasının alınması üçün müqaviləyə transformasiya olunacaq", - prezident İlham Əliyev deyib.

## "BDU-ya yeni rektor təyin edilməsi barədə yayılan məlumat doğru deyil"

**Bakı Dövlət Universitetinin mətbuat xidməti sosial şəbəkələrdə bu təhsil müəssisəsinə yeni rektor təyin edilməsi barədə məlumatlara münasibət bildirib. Universitetdən «Trend»in sorğusuna cavab olaraq bildirilib ki, ali təhsil müəssisəsinə yeni rektor təyin edilməsi barədə yayılan məlumatlar düzgün deyil.**

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov isə «Trend»ə bildirib ki, hazırda BDU-nun rektoru vəzifəsinin icrasını universitetin tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, professor İradə Əliyeva həyata keçirir.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov noyabrın 15-də vəzifəsindən azad edilib.

## Bu gün Binəqədi və Xətai rayonlarında qaz olmayacaq

**Bakı şəhəri Xətai və Binəqədi rayonlarının təbii qaz təchizatında məhdudiyyətlər olacaq. "Azəriqaz" İstehsalat Birliyindən Trend-ə verilən məlumata görə, Xətai rayonu Ağ şəhər ərazisində yeni çəkilmiş diametri 400 mm-lik polietilen orta təzyiqli qaz xəttinin mövcud şəbəkəyə birləşdirilməsi və Binəqədi rayonu Cavadxan və M.Kazımovski küçələrinin kəsişməsində ayrılan yeraltı diametri 159 mm-lik orta təzyiqli qaz kəmərində aşkar olunmuş qaz sızmasının aradan qaldırılması, həmçinin Zahid Qəmbərov küçəsində yeni çəkilmiş diametri 315 mm-lik polietilen qaz xəttinin mövcud şəbəkəyə qoşulması ilə əlaqədar 20 noyabr saat 10:00-dan təmir işləri tamamlananadək Xətai rayonu, Xocalı, Nobel, Babək prospektləri, UPD qəsəbəsi, Yusif Səfərov, Sabit Orucov, Fəzail Bayramov küçələrinin, eləcə də Binəqədi rayonu 6, 7, 8 və 9-cu mikrorayonlarının, Rəsulzadə və Xutor qəsəbələrinin bir hissəsində təbii qazın verilişində fasilələr yaranacaq.**

Görülən zəruri təmir işlərinin Yeni Yasamal yaşayış massivi, Şərifzadə, Vasif Əliyev və Xıdır Mustafayev küçələrinin bir hissəsinin də qaz təchizatına təsir göstərməsi mümkündür.

Aparılan təmir işləri gün ərzində yekunlaşdırılaraq təbii qazın verilişində yaranacaq fasilə aradan qaldırılacaq. "Azəriqaz" bütün istehlakçılardan təbii qazdan istifadə zamanı xüsusilə diqqətli olmalarını və texniki təhlükəsizlik qaydalarına riayət edilməsini xahiş edir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Türk axını" başqalarına qarşı yönəlməyib" - Putin

**"Türk axını" layihəsi başqalarına qarşı yönəlməyib, dövlətlərin öz milli mənafeyini qorumaq bacarığını nümayiş etdirir".**



Bunu "Türk axını" təbii qaz kəməri layihəsinin Türkiyəyə qaz verilməsini nəzərdə tutan ilk xəttinin dəniz hissəsinin tamamlanması ilə əlaqədar İstanbulda keçirilən mərasimdə Rusiya prezidenti Vladimir Putin deyib.

"Bu kimi layihələr, o cümlədən hazırkı layihə heç kimə qarşı yönəlməyib və sırf qurucu mahiyyət daşıyır", - deyən Rusiya prezidentinin sözlərinə görə, bu layihə dövlətlərarası münasibətlərin genişlənməsinə, iqtisadiyyatın dayanıqlı inkişafına və iki ölkə əhalisinin rifahının yüksəlməsinə yönəlib.

## Dəm qazı "terroru" yenə başladı - bir ailənin 3 üzvü zəhərləndi

**Bakıda bir ailənin 3 üzvü evdə huşsuz vəziyyətdə aşkarlanıb. Hadisə paytaxtın Xətai rayonu, General Şıxlinski küçəsi, ev 3a, mənzil 48-də baş verib.**

Həmin evdə yaşayan, Gəncə şəhər sakinləri, 1968-ci il təvəllüdlü Alıyeva Ruhəngiz AbdulƏli qızı, 1933-cü il təvəllüdlü Alıyeva Qəmər Novruz qızı və 2006-cı il təvəllüdlü Süleymanlı Sevinc Musa qızı evlərində huşsuz vəziyyətdə aşkarlanıblar.

Onlar dərhal Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə yerləşdiriliblər.

Məlum olub ki, hər 3 şəxs dəm qazından zəhərlənib.

Faktla bağlı araşdırma aparılır. (Trend)

## Cari dərs ilində "Ədəbiyyat biliciləri" müsabiqəsi keçiriləcək

**Təhsil naziri Ceyhun Bayramov "2018-2019-cu dərs ilində "Ədəbiyyat biliciləri" müsabiqəsinin keçirilməsi barədə" əmr imzalayıb.**

Təhsil Nazirliyindən «Trend»ə verilən məlumata görə, müsabiqə ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə keçirilir. Müsabiqədə iştirak könüllü xarakter daşıyır. Müsabiqə Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, mütaliəyə maraqlarının gücləndirilməsi məqsədilə keçirilir.

"Ədəbiyyat biliciləri" müsabiqəsi üç mərhələdə təşkil olunur. Müsabiqənin məktəb mərhələsi noyabr-dekabr, rayon (şəhər) mərhələsi yanvar-fevral, ölkə mərhələsi mart-aprel aylarında keçiriləcək.



## Nazirlik vətəndaşa qoca qoyunlar verilməsi məsələsinə aydınlıq gətirdi

### "Qoyunlar verilərkən həmin vaxt o, verilən mal-qaradan məmnun olduğunu, onu qane etdiyini bildirib"

**Goranboyun Əlirzalı kənd sakini Ariz Qnyaz oğlu Dəmirov ona Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Məşğulluq Mərkəzi tərəfindən verilən qoyunların qoca olmasından şikayəti haqda məlumat vermişdik. "Yeni Müsavat"ın 19 noyabr tarixli sayında "Məşğulluq Mərkəzinin qoyunlu oyunları - film kimi fırıldaq" (http://musavat.com/news/mesgulluq-merkezinin-qoyunlu-oyunlari-film-kimi-firildaq_571421.html) sərlöhvəli yazıda A.Dəmirov ona özünüməşğulluq proqramı çərçivəsində təhvil verilən qoyunların qoca kaftar, dişsiz olmasından şikayətlənmişdi, əmək və əhalinin sosial müdafiəsi nazirindən kömək istəmişdi.**

Məsələyə ƏƏSMN-dən reaksiya verilib, redaksiyamıza göndərilən yazılı açıqlamanı təqdim edirik: "Goranboy rayonu, Əlirzalı kənd sakini Ariz Qnyaz oğlu Dəmirovun özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatını yaratmaq üçün ona verilən xırda buynuzlu mal-qaranın qocalmış qoyunlardan ibarət olması ilə bağlı mətbuatda dərc olunan şikayəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən araşdırılıb. Bildiririk ki, özünüməşğulluq proqramı çərçivəsində proqram iştirakçılarına mal və materiallar təqdim edilərkən bu proses aktla rəsmiləşdirilir. Proqram iştirakçısına seçim imkanı verilir, verilən mal-qara ilə bağlı onun rəyi, məmnunluğu mütləq şəkildə nəzərə alınır. Təqdim olunan mal və materiallardan, o cümlədən mal-qaradan proqram iştirakçısı məmnun olduğu halda həmin aktı imzalayaraq qəbul edir. Əgər təqdim edilən mal-qara onu qane etmirsə, o zaman onları qəbul etməyərək aktı da imzalamaya bilər. Özünüməşğulluq proqramı iştirakçısı olan Ariz Dəmirova da oktyabrın 28-də kiçik təsərrüfatını yaratmaq üçün qoyunlar verilərkən həmin vaxt verilən mal-qaradan məmnun olduğunu, onu qane etdiyini bildirib, mal və materialları qəbul etdiyinə dair aktı imzalayıb. Belə olan halda Ariz Dəmirovun mal-qara veriləndən üç həftə vaxt ötdükdən sonra şikayət edərək verilmiş mal-qaradan narazılığını bildirməsi əsaslı ola bilməz və reallığı əks etdirmir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



## Azay Quliyev QHT-lər üçün ictimai dinləmə keçirəcək

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev 28 noyabr 2018-ci il, saat 11:00-da «Hilton» hotelində rəhbərlik etdiyi qurumun göstərdiyi xidmətlərin keyfiyyətinin və QHT-lərin hesabatlılıq vəziyyətinin müzakirəsinə həsr olunan ictimai dinləmə keçirəcək.**

Toplantıya QHT sədrləri və layihə rəhbərləri dəvətlidir.

❑ **Musavat.com**

## Əli Kərimli 2500 manat cərimələndi, sərbəst buraxıldı

**AXCP sədri Əli Kərimli noyabrın 19-da Səbayel Rayon Məhkəməsində inzibati qaydada cərimələnib və sərbəst buraxılıb.**

Virtualaz.org bildirir ki, bu barədə sosial şəbəkələrdə AXCP fəalları məlumat paylaşıblar.

Xatırladaq ki, noyabrın 17-si saat 15 radələrində AXCP rəhbərliyi və bir qrup partiya fəalı, eləcə də digər siyasi qurumların nümayəndələri Dirçəliş günü ilə bağlı Şəhidlər Xiyabanına icazəsiz yürüşə cəhd ediblər. Nəticədə 52 nəfər saxlanılaraq Səbayel Rayon Polis İdarəsinə aparılıb.

Orada izahatı alındıqdan sonra 41 nəfər, o cümlədən Cəmil Həsənli sərbəst buraxılıb.

AXCP sədri Əli Kərimli ilə birlikdə saxlanılanların bəziləri barəsində isə noyabrın 19-da məhkəmə qərar çıxarıb.

Ramid Nağıyev (AXCP təşkilat şöbəsi) 400 manat, Sərdar Qubadsoy (Xətai şöbəsi) 400 manat, Fatimə Mövlamova (blogger) 500 manat, Nurlan Libre (Kanal13 internet televiziyasının əməkdaşı) 500 manat cərimələniblər.

Məhkəmə qərarına əsasən AXCP sədri Əli Kərimli isə 2500 manat cərimələnib.

Ə.Kərimli İnzibati Xətalar Məcəlləsinin 513.1-ci ( Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkilinin və keçirilməsinin "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydasının toplantının təşkilatçısı tərəfindən pozulmasına görə) və 513.2-ci ("Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təşkil edilməyən yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və ya piketdə iştirak etməyə görə) maddələri ilə ittiham edilib.

Digər şəxslər isə sadəcə, 513.2-ci maddə ilə təqsirli biliniblər.

❑ **İlkin MURADOV, Musavat.com**

**"Azərbaycanın İranla dövlət sərhədinin 132 km-lik hissəsi nəzarətsiz zonaya çevrilib ki, həmin ərazilərdən də Avropa və digər ölkələrə narkotik vasitələr daşınır".**

# Azərbaycanda 2018-ci ilin 10 ayında 1.177 ton heroin tutulub - ilginc statistika

## **Baş nazirin müavini Əli Həsənov:** "İranla sərhədin 132 km-lik hissəsi nəzarətsiz zonaya çevrilib ki, həmin ərazilərdən də Avropa və digər ölkələrə narkotik vasitələr daşınır"

## **Arzu Nağıyev:** "Hüquq-mühafizə orqanları narkotiklərə qarşı mübarizədə mühüm işlər görür"



**Bunu Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri, baş nazirin müavini Əli Həsənov** Bakıda keçirilən BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə Alt Komissiyasının 53-cü sessiyası zamanı bildirib.

O qeyd edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarda ermənilər tərəfindən narkotik bitkilər becərilir:

"Həmin ərazilərdə narkotiklərin istehsalı və tranziti, eləcə də terrorçu qrupların yaradılması və onlara təlimlər keçirilməsi təhlükənin miqyasını daha da artırır. Bu, beynəlxalq normaları pozur".

Qeyd edək ki, 2014-cü ildə ABŞ Dövlət Departamentinin Konqresə təqdim etdiyi "Beynəlxalq Narkotiklərə Nəzarət Strategiyası" adlı hesabatda bildirilirdi ki, Azərbaycan ərazisindən hər il 11 tona qədər heroin keçirilir. Bunun çox hissəsi İranla sərhəd vasitəsilə cənubdan daxil olur. Ölkə Gürcüstandan və Türkiyədən keçirilən narkotik üçün də əlverişli sayılır. Hesabatda Azərbaycanın işğal altındakı Dağlıq Qarabağın sərhədlərini qoruya bilməməsindən də narahatlıq ifadə olunurdu.

**"Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı Azərbaycan prezidenti İlham Əliyev tərəfindən 15 fərman, 54 sərəncam verilib".**

**Bu sözləri də ötən gün Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri, baş nazirin müavini Əli Həsənov Bakıda keçirilən BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə Alt Komissiyasının 53-cü sessiyası zamanı bildirib. Onun sözlərinə görə, Azərbaycan parlamenti tərəfindən 36 qanun qəbul olunub. Nazirlər Kabineti 23 qərar, 5 sərəncam qəbul edib. Əli Həsənov qeyd edib ki, bu ilin 10 ayı ərzində 2 min 655 fakt üzrə 2 ton 86 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb. Onlardan 1 ton 177 kiloqramı heroin təşkil edib:** "Narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxsləri müalicə etməklə, onların sağlam həyata qaytarılması istiqamətində sistemli fəaliyyət təmin edilib".

Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə Azərbaycanda 52 kiloqram 200 qram heroin qeyri-qanuni dövriyyədən çıxarılmışdısa, 2018-ci ilin 10 ayında bu rəqəm - 1 ton 177 kiloqram olub. İl sona çatmayıb və rəqəmin dəyişəcəyi də qaçılmazdır.

7 il ərzində qanunsuz narkotik dövriyyəsinin bu qədər sürətlə böyüməsi nədən xəbər verir?

**Sabiq təhlükəsizlik zabiti, narkotiklərlə mübarizəyə "Qara kabus" adlı kitab həsr edən ekspert Arzu Nağıyev deyir ki, hazırda dünyada qanunsuz dövriyyə ilə bağlı son dərəcə sadə olmayan bir vəziyyət yaranıb:** "Bir neçə gün əvvəl prezident İlham Əliyev Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. 100-dən çox dövlətin 500-dən artıq nümayəndəsi həmin tədbirə qatılacaq. Bu gün Azərbaycan dünyanı düşündürən, ən böyük problemlərdən biri olan narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasına öz töhfəsini verir. Son zamanlar Azərbaycan hüquq-mühafizə orqanları narkotiklərə qarşı mübarizədə mühüm işlər görür. Azərbaycan müstəqillik qazanandan sonra mənfur qonşularla müharibəyə cəlb edildi. Narkomafiyalar da əsasən gərginlik ocaqları olan ərazilərdəki separatçılarla əlbir işləyirlər. Dağlıq Qarabağ zonasında relyef də, dondurulmuş münaqişə də oradakı terrorçular, qanunsuz dəstələr də narkoticarət üçün münbit şərait yaradır. Düşünürəm ki, həmin ərazilərdə müəyyən laboratoriyalar da mövcuddur. BMT-nin hesabatlarında bu haqda məlumatlar keçib. BMT-nin Narkotiklər və Cinayətlə Mübarizə Təşkilatının hazırladığı "Dünya Narkotiklər hesabatında" bildirilir ki, Qafqazda və regionda separatçı rejimlərin nəzarətində olan ərazilər - xüsusən də Dağlıq Qarabağ və Abxaziya heroin trafikində önəmli yer tutur. BMT-nin narkotiklərlə bağlı hesabatına görə ümumilikdə Avropaya daşınan heroin satışından gələn illik gəlir 20 milyard dolları aşır. Heroin ağır narkotikdir və istehsalı əsasən Əfqanıstandadır. Əvvəllər narkotiklər əsasən Balkanlar üzərindən daşınırdı. Balkanlarda müharibə qızışdığına görə marşrutu cənub və şimal marşrutlarına dəyişdilər. İran, Rusiya, Azərbaycan, Gürcüstan ərazilərindən istifadə edilərək Avropaya narkotik daşımaları həyata keçirilir. Ukrayna əraziləri də narkoticarətçilərin tranzit yollarına daxildir. Bu marşrutlar hansısa ölkənin razılığı və ya narazılığı ilə seçilmir. Bu marşrutları narkobaronlar, həmin trafikə nəzarət edənlər müəyyən edir. Onlar bir-iki dəfə marşrutu yoxlayırlar. Əfqanıstandan Avropaya narkotik daşıyanların yeni - "Şimali Balkan yolu" adlandırdığı marşrut məhz Azərbaycandan keçir: Əfqanıstan, İran, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Bolqarıstana daşınır. Köhnə Balkan marşrutu isə İrandan birbaşa Türkiyəyə yönəlirdi. İrandan Türkiyəyə toplanan heroin ya İstanbul vasitəsilə Bolqarıstana, ya Anadolu boyunca - Egey dənizi və Yunanıstana, ya da Hakkaridən şimala - Qara dəniz və Ukraynaya daşınır. Almaniya, İtaliya, Hollandiya, Britaniya bazarlarına heroin məhz bu marşrutlarla gedir".

**Ekspertin sözlərinə görə, Əfqanıstan-İran-Azərbaycan-Avropa dövlətləri yolu da illərdir ki, məlum yoldur:** "Bu axın Azərbaycanda istehsalın, istehlakın nə qədər olmasından asılı məsələ deyil. Arada olur ki, Balkanlarda müharibə ilə əlaqədar narkotik marşrutları tez-tez dəyişir. Böyük narkotik partiyalarının tutulması onu deməyə əsas verir ki, Azərbaycan hüquq-mühafizə orqanlarına əməliyyat məlumatları əvvəlki illərə nisbətən daha çox daxil olmağa başlayıb. Hiss olunur ki, tutulan mallar Azərbaycan üçün deyil, məhz Avropa üçün nəzərdə tutulub".

**Arzu Nağıyev deyir ki, bu gün dünyada narkotrafiklə bağlı ikili standartlar var:** "Əfqanıstanı taliblər idarə edəndə orada ən az narkotik istehsal olunmuşdu. Sonradan Rusiya qoşunları orada olanda narkotik istehsalı az da olsa artdı. ABŞ və digərləri ora girəndən sonra isə narkotrafik həddən artıq çoxaldı. Əfqanıstanda narkotiklərin yetişdirilməsi geniş vüsət alıb. İnandırıcı görünmür ki, bu nəzarətsizlikdən irəli gəlir. Söhbət ikili standartlardan gedir. Bu gün Əfqanıstanda kənd təsərrüfatını dirçəldə, iqtisadiyyatı bir tərəfə yönləndirə bilsələr, ola bilər ki, narkotik becərilməsinin qarşısını ala bilərlər. Bunu etmirlər. Əfqanıstanlı, hansı ki, narkotik becərilməsi ilə məşğuldur, o, bu işdən imtina edən deyil. Çünki onun başqa qazanc yeri yoxdur".

**Onun sözlərinə görə, Əfqanıstanda narkotik becərilməsinin qarşısını almaq üçün yollar axtarılmır:** "Bu gün Əfqanıstanda həmin qoşun kontingentinin yerləşdirilməsinin özəl səbəbləri var. Əfqanıstanda böyük litium yataqları var. Həmin yataqları ələ keçirmək üçün məqsədyönlü iş aparılır. Litium elektromobillərin yaradılması üçün əvəzsiz komponentdir. Dünya postneft dövrünə qədəm qoyandan sonra litium neftin yerinə keçəcək. İndidən həmin yataqların olduğu ərazilər ələ keçirilir və buna görə də Əfqanıstanda narkotik becərilməsinə göz yumulur. Düşünürəm ki, onların arasında razılıq, danışıq var. Başqa cür ola bilməz. Əfqanıstanda müharibə getdiyi dövrdə narkotik plantasiyalarının birinə də bir bomba düşməyib, dron-kamikadzelərlə hücum olmayıb. Bu təsadüfdür?"

❑ **E. MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Milli Dirçəliş Günü ilə bağlı ziddiyyətli fikirlər

## **Zamin Hacı:** "30 ildir biz Qarabağa həsrətiksə, bu nəyin, kimin dirçəlişidir?"

## **Ənvər Əliyev:** "Milli dirçəliş başqa şeydir, torpağı vermək isə tamamilə fərqli mövzudur"



**17 noyabr tarixi Azərbaycanda Milli Dirçəliş Günü kimi qeyd edilir. Bu gün 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda olan hadisələrlə bağlıdır. Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapdı.**

17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan Azadlıq meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri (17 noyabr - 5 dekabr, 1988-ci il) başladı.

Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır.

Lakin Dirçəliş Günü ilə bağlı tənqidi fikirlər də var. Köşə yazarı Zamin Hacı "Yeni Müsavat" qəzetində çap edilən müəllif yazısında bu günlə bağlı fikirlərini yazıb.

**Zamin Hacının köşəsindən bəzi məqamları qeyd edirik:**

"Tam səmimi yazıram: mən bu "Dirçəliş günü" söhbətini heç anlamıram. Dirçəlib nə əldə etmişik? Millət olaraq qazancımız nədir? Əgər fikirdə, mədəniyyətdə, sosial həyatda dirçəlişdən söhbət gedirsə, bunların izi-tozu yoxdur. Araba, ən yaxşı halda qabaqkı yerində durubdur, əsasən pis hallarda isə təkərinin biri çalaya batmış, oxu əyilmiş, atını canavarlar parçalamış vəziyyətdə bataqlığa gedən yolun qırağında çürüməkdədir. Fikir və mədəniyyəti niyə xüsusi vurğulayıram, ətrafınıza baxsanız aydın görərsiniz.... Qarabağ isə yoxdur. 30 ildir biz Qarabağa həsrətiksə, bu nəyin, kimin dirçəlişidir? Nəyi bayram edirik? Bunu bayram eləmək təxminən ona bənzəyir ki, meşə yanğınlarının başlandığı günü "Kaliforniyanın qurtuluşu günü" elan edib qutlayasan. Mən biləni, amerikalılar hətta Trampdan sonra da bu cür səfehləməyiblər".

**"Yeni Müsavat"a danışan Meydan mitinqlərinin təşkilatçısı Ənvər Əliyev bildirib ki, milli dirçəliş fərqli məsələdir və bunu digər məsələlərlə qarışdırmaq olmaz:**

"O zaman meydanda 1 milyon adam var idi. Hərəkətə keçsəydik, Qarabağı alıb, erməniləri də torpaqlarımızdan qova bilərdik. Milli dirçəliş başqa şeydir, torpağı vermək isə tamamilə fərqli mövzudur. Bunları qarışdırmaq olmaz. 17 noyabr 1988-ci il Azərbaycanda milli təfəkkürün oyanış günüdür. Biz istər-istəməz suverenliyə, müstəqilliyə doğru gedirdik. Bu hadisələr isə bizim getdiyimiz yolda bir yardımçı idi. Çünki imperiya dağılırdı və ayrı-ayrı subyektlər də müstəqillik əldə edirdilər. Çox maraqlıdır ki, ruslar da müstəqillik gününü elan ediblər. Onlar necə, nə cür müstəqil olublar bu, aydın deyil. İkincisi də müstəqillik millətin həyatında çox böyük bir gündür. Elə bir gündür ki, bunu başqa heç nə ilə əvəz etmək olmaz. Müstəqillik millətin özünüdərkinin təsdiqidir. Millət özünü təsdiq edəndə, müstəqil olanda daha da yüksəlir. Müstəqillik hissi millətin özünün özü üzərində qələbəsidir. Biz müstəqil ola bilmişik və yəqin ki, digər problemləri də yavaş-yavaş həll edəcəyik. Müstəqilliyə gedən yol da məhz dirçəliş günündən keçir. Bu, müstəqilliyə gedən yolda bir start xəttidir. Elə millətlər var ki, onlar lazım olan inkişaf xəttinə daha tez gedib çatırlar. Çünki o millətlərin xain qonşuları, vətənlərini çapıb talayan ziyalıları, məmurları yoxdur. O adamlar vətənlərinə gəlir mənbəyi kimi baxmayıb, milyonları talamırlar. Bizim üçün ən gözəl nümunə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdir. Cümhuriyyət qurucularımız maaşlarını xalqa, müəllimlərə xərcləyirdilər. Dövlətin müstəqilliyi yolunda öz əmlaklarını satırdılar. İndi isə məmurlarımız vətəni talayırlar. Buna görə də lazımi inkişafa gedən yol bir qədər uzun olacaq".

**Ə. Əliyev barəsində deyilən bəzi ittihamlara da cavab verib:**

"Bəzi şəxslər deyirlər ki, guya mən orada cəmi bir gün olmuşam. Əslində isə mən orada 3 gün olmuşam. 19 noyabrda da çıxış edərək bildirmişəm ki, mənim bundan sonrakı işlərimi Sabir Rüstəmxanlı davam etdirəcək. Çünki çox çətin proseslərdən keçib, o qədər insanları meydana gətirib çıxarmışdım. Həmin zaman yaralandığım üçün işlərimi axıra çatdıra bilmədim. İşlərimi həvalə edib getdim, iki-üç gün sonra geri qayıtdığımda isə milis məni meydana buraxmadı. Bəxtiyar Vahabzadə kimi adamlar məni buraxdıra bilmədilər. Yeni tarixi məsələlər barəsində danışanda, doğru-dürüst danışmaq lazımdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

# Gələn il pambıq əkini sahəsi azaldılacaq

## Amma istehsal builkindən daha yüksək olacaq

**Prezident İlham Əliyevin bu ilin mayında imzaladığı sərəncamla yaradılan Kənd Təsərrüfatı yanında Aqrar Tədqiqatlar Mərkəzi özünün fəaliyyət istiqamətləri və funksiyalarını ictimaiyyətə təqdim etdi. Bununla bağlı keçirilən mətbuat konfransında verilən məlumatdan aydın oldu ki, Aqrar Tədqiqatlar Mərkəzində Azərbaycan və xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almış, aqrar sektorda çalışmış, aqrar sahənin müxtəlif istiqamətləri üzrə ixtisaslaşmış kadrlar bir araya gəlib. Bu Mərkəzin aqrar sahənin "beyin mərkəzi" rolunu oynayacağı nəzərdə tutulur.**





Mərkəzin direktoru Pərviz Hacıyev bildirib ki, qurumun yaradılmasında məqsəd kənd təsərrüfatında məhsuldarlığı, qida keyfiyyətini, davamlı ərzaq təhlükəsizliyini, iqtisadi inkişafı, təbii ehtiyatların və ətraf mühitin bütövlüyünün qorunmasını təmin etmək, innovativ kənd təsərrüfatı texnologiyaları ilə dəstəkləməkdir. Bundan başqa, ATM əməkdaşları dərin təhlilə əsaslanan tədqiqatlar apararaq kənd təsərrüfatı məhsullarının istehsalında səmərəliliyi artırmaq niyyətindədirlər. P.Hacıyev həmçinin mərkəz tərəfindən elektron kənd təsərrüfatı informasiya sisteminin artıq başa çatmaq üzrə olduğunu bildirib. Onun sözlərinə görə, bu sistemin yaradılması aqrar sahənin inkişafına, davamlı ərzaq təhlükəsizliyinin, iqtisadi inkişafın, innovativ kənd təsərrüfatı texnologiyalarının tətbiqinə xidmət edir.

Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini Toğrul Cəfərov bildirib ki, mərkəzin əsas funksiyalarına aqrar məlumat bazasının yaradılması, elektron kənd təsərrüfatı informasiya sisteminin formalaşdırılması da daxildir. Bu sistem əsasında aqrar təhlillərin aparılması və qiymətləndirməsi, aqrar proqnozlaşdırma, özəl və dövlət sifarişlərinin yerinə yetirilməsi mümkün olacaq. T.Cəfərovun sözlərinə görə, beynəlxalq ekspertlərin iştirakı ilə proqram və layihələrin hazırlanması, aqrar sahənin strateji planlaşdırılması və elmi tədqiqat işlərinin aparılması da nəzərdə tutulur.

Mərkəzin yaratdığı elektron bazaya artıq 400 min fermer və onun təsərrüfatı barədə məlumatlar daxil edilib. Bazanın yaxın müddətdə tam hazır olacağı və fəaliyyətə başlayacağı gözlənilir. Bu baza imkan verəcək ki, gələcəkdə hansı kənd təsərrüfatı məhsullarının becərilməsi barədə fermerlər məlumatlandırılsın. Bu isə istehsalın tənzimlənməsi nəticəsində bir məhsulun bir il baha, növbəti il çox ucuz olmasının qarşısını alacaq

Mərkəzin direktor müavini Namiq Şalbuzov hazırlanan dövlət proqramları barədə məlumat verib. O bildirib ki, heyvandarlığın inkişafına dair Dövlət Proqramının ilkin layihəsi hazırlanıb, bundan başqa, taxılçılığın inkişafına dair Dövlət Proqramı üzərində iş davam edir. Taxılçılıqla bağlı dövlət proqramında qarşıya qoyulan əsas hədəf 2023-cü ilədək buğda istehsalını ölkənin tələbatının 60 faizinə, qarğıdalı və soya istehsalını isə 100 faizinə çatdırmaqdır.

Heyvandarlığın inkişafına dair Dövlət Proqramında isə intensiv yolla bu sahədə məhsuldarlığı yüksəltmək nəzərdə tutulur. Bu zaman ət və süd məhsulları ilə daxili tələbatı təmin etmək, həmçinin ixraca nail olmaq hədəflənir.

**ATM tərəfindən pambıqla bağlı arayış və təkliflər hazırlanaraq əlaqədar qurumlara təqdim olunub. ATM-in direktoru P.Hacıyevin sözlərinə görə, Azərbaycanda yaxın illərdə pambıq istehsalını 400-500 min tona çatdırmaq üçün əlavə əkin sahələrinin ayrılmasına ehtiyac yoxdur:** "Pambıq elə bitkidir ki, növbəli əkin sistemi, düzgün aqrotexniki qulluq və doğru yer seçilməsə, orada normal məhsuldarlığa nail ola bilməyəcəksən. Bizim əldə etmək istədiyimiz məhsuldarlıq bir hektar üçün 3-3,5 tondur. Normal becərmə üsulları tətbiq olunarsa, bu məhsuldarlıqla biz 150-160 min hektarla 450-500 min ton istehsala nail ola bilərik. Bizim hədəfimiz məhz bu göstəricidir. Bu, çox real bir rəqəmdir. Dünyada pambıqdan böyük nailiyyətlər əldə edən ölkələrdə məhsuldarlıq 3,5-4 tondur. Biz də buna nail ola bilərik və olmalıyıq da. Pambığın maya dəyərinə gəlincə, o, məhsuldarlıqla tərs mütənasibdir. Yəni məhsuldarlıq artıqca, maya dəyəri aşağı düşür. Bu isə daha çox gəlir əldə olunması deməkdir. Bizdə hardasa 17 sentner pambıq bir hektar üçün maya dəyəridir. Yəni bir hektarın maya dəyəri 1000-1100 manata bərabərdir. Ümumiyyətlə, kənd təsərrüfatına elmi yanaşmanı tətbiq etməklə bütün məhsullar üzrə dünya səviyyəsində məhsuldarlığa nail olmaq mümkündür. Biz məhz elmi yanaşmanı tətbiq edəcəyik".

**N.Şalbuzovun verdiyi məlumata görə, 2019-cu ildə Azərbaycanda 104,9 min hektar sahədə pambıq əkiləcək:** "Pambıq əkini üçün son illərdə ən yüksək məhsuldarlıq əldə olunmuş rayonlar seçilib. Bu il 132,5 min hektarda pambıq yetişdirilib. 2017-ci ildə isə 136 min hektarda əkilib və 207,5 min ton məhsul götürülüb. Bu il isə yığım hələ başa çatmayıb, artıq 210,3 min ton məhsul əldə olunub. Bu o deməkdir ki, artım məhsuldarlığın yüksəldilməsi hesabına baş verib. 2018-ci ildə Azərbaycanda 79,3 min ton mahlıc istehsal olunub - 2017-ci ildəkindən 2 dəfə artıq. Bu il başa çatmayıb, amma 78 milyon dollarlıq mahlıc, 17 milyon dollarlıq iplik ixrac etmişik. Bizim əsas məqsədimiz pambığın mahlıc kimi deyil, son məhsul kimi ixracına nail olmaqdır. Pambığın dəyər zənciri üzrə son mərhələyə çatmaq üçün tədbirlər görməliyik. Artıq Mingəçevirdə 2 iplik istehsalı zavodu fəaliyyətə başlayıb. Ölkədə 23 pambıq emalı zavodu fəaliyyət göstərir ki, onların da illik istehsal gücü 465 min tondur. Yəni istehsal olunan pambığın hamısını emal etməyə güc var. Amma mahlıcın ipliyə çevrilməsi üçün ölkədə potensial azdır. Əldə olunan ipliyi parçaya, parçanı paltara çevirmək potensialı da çox məhduddur. Bizim əsas hədəfimiz bu sahələrdə potensialı artırmaqdır. Özü də yüksək keyfiyyətli məhsul istehsalı sistemi yaratmaqla. Bu zaman dəyər səncirinin bütün mərhələlərini daxildə icra etməyə və son məhsulu ixrac etməklə yüksək gəlirə nail olacağıq".

**ATM direktorunun dediyinə görə, hazırda ölkədə qoyun ətinə olan tələbat 100 faiz ödənilir:** "Mal əti üzrə bu göstəricini 90 faizə, quş əti üzrə isə 100 faizə çatdırmaq istəyirik. Bu, yaxın vaxtlarda reallaşa bilər".

P.Hacıyev onu da bildirib ki, Mərkəz tərəfindən ət və süd istehsalı ilə bağlı layihə hazırlayır. Həmin layihənin icrası bu iki sahədə ciddi təkana səbəb olacaq. Layihədə əsas hədəf istehsalı intensiv üsulla artırmaqdır.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# İçdiyimiz suyun tərkibi - krantlarda toplanan zibillər...

## Anar Cəbrayıllı: "Əhaliyə verilən suyun keyfiyyətində heç bir problem ola bilməz"

**Bakıda əhaliyə verilən içməli suyun tərkibi məsələsi tez-tez müzakirələrə səbəb olur. Redaksiyamıza şikayət edən sakinlər bildirirlər ki, evlərində su krantını açdıqları zaman bəzən pas, palçıq gəlir, süzgəclərdə zibil toplanır. Sakinlər bildirirlər ki, bu suyu qaynanılan zaman da xeyli ərp yığılır. Bəzi ekoloqlar hesab edirlər ki, suyun çirkli olmasının səbəbi Kür çayıdır. Hətta ekoloqlar tərəfindən Kür çayının suyundan imtina təklifləri də səslənib. Bildirilir ki, Kür çayı ona görə çirklənir ki, Ermənistan öz mis mədənlərinin tullantılarını çayın mənbəyinə tökür, Gürcüstanda isə Tiflis şəhərinin kanalizasiyası təmizlənmədən çaya axıdılır.**



Bu səbəbdən Bakıda əhaliyə verilən suyun anbarlarda filtrasiyadan normal keçirilmədiyi üçün orqanizmə zərərli olduğu iddiası var.

2017-ci ilin dekabr ayında Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən açıqlama verilib ki, 11 ay ərzində 56 şəhər və rayondan müayinə edilən 484 su nümunəsi fiziki-kimyəvi göstəricilərinə görə normaya uyğun olub. Mərkəzdən bildirilib ki, nümunələr nəticəsində bakterioloji göstəricilərinə görə standartların tələblərindən kənara çıxma 3,7% qeydə alınıb...

**"Yeni Müsavat"a danışan "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı isə bildirib ki, əhaliyə verilən su bütün mənbələrdə keyfiyyət standartlarına tam şəkildə uyğundur:**

"Yəni biz daim həm mənbələrdə emal zamanı, həm magistral xətlərdə, anbarlarda, məhəllədaxili anbarlarda, nasos stansiyalarında, ictimai-iaşə, sosial obyektlərdə nümunələr götürüb, suyun tərkibini yoxlayırıq. "Azərsu" il ərzində 15 mindən çox su nümunəsi yoxlayır. Bizdən də başqa suyun keyfiyyətinə nəzarəti Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi həyata keçirir. Onlar da ürəkləri istədikləri yerdən nümunələr götürüb, özlərinə aid laboratoriyada yoxlayırlar. Onların da yoxlamalarından heç bir problem çıxmayıb. Bu ilin 9 ayı ərzində bu qurum təxminən 800-dən çox nümunə götürüb. Həmçinin biz də bu aylar ərzində 10 mindən yuxarı nümunə götürüb, yoxlamışıq, müxtəlif parametrləri öyrənmişik. Kimsə deyirsə ki, suyu paslı gəlir, bu, konkret ünvanla bağlı ola bilər. Bununla əlaqədar da bizə müraciət etsinlər və nümunələr götürək. Bu gün Bakı ətrafında elə qəsəbələr var ki, orada xətti borularla, yerin üstündən çəkiblər. Yaxud da keyfiyyətsiz borulardan istifadə edilib. Mümkündür ki, həmin borularda cürümə var və bu səbəbdən də suyu açan zaman pas gəlir. Belə hallar zamanı insanlar bizə müraciət edirlər. Bizdə isə suyun keyfiyyəti ilə bağlı hər bir məsələ xüsusi diqqətdə saxlanılır. Vətəndaş müraciət edən kimi həmin əraziyə hökmən nümayəndə göndərilir və yerindəcə suya baxış keçirilir. Əgər ehtiyac olarsa, bizim səyyar laboratoriya maşını ora gedib, yerində nümunələr götürüb, təhlil edilir və bununla bağlı da vətəndaşa məlumat verilir. Eyni zamanda ola bilər ki, hansısa ərazidə qəza baş verib və daxili kommunikasiya xətlərindəki problem səbəbindən belə bir hal yaranıb. Eyni zamanda uzun istifadə edilən xətlərdə korroziya səbəbindən su gələn zaman ilk bir neçə dəqiqə ərzində rəngi dəyişik olar. Ancaq bir neçə dəqiqə ərzində bu, aradan qalxar. Bu baxımdan problem olan zaman vətəndaş bizə müraciət etsin, gedib yoxlayaq".

**A.Cəbrayıllı söyləyib ki, "Azərsu" ASC bəyan edir ki, əhaliyə verilən suyun keyfiyyətində heç bir problem ola bilməz:**

"Bakıda və eləcə də regionlara əhaliyə verdiyimiz suyun keyfiyyəti ilə bağlı heç bir problem yoxdur. Bütün parametrlər standart çərçivəsindədir. Eləcə də deyim ki, suyun keyfiyyətinə 24 saat nəzarət edirik. "Azərsu" ASC qarşısına məqsəd qoyub ki, gələcəkdə regional laboratoriya yaratsın. Bu gün də həmin layihə üzərində işlər gedir. Artıq Ucar və Masallıda regional laboratoriyaya kimyaçı, bioloq olmaqla mütəxəssis axtarırıq ki, həmin bölgələrdə də mənbələrimiz, əhalinin istifadə etdikləri bulaqların və digər bu kimi suların keyfiyyətini yoxlayaq, nəzarətdə saxlayaq. Suyun keyfiyyəti kifayət qədər ciddi məsələdir və biz də bu səbəbdən daim məsələni nəzarətdə saxlayırıq".

Mütəxəssislər bildirirlər ki, Kalsium, maqnezium, natrium mineralları içməli suyun tərkibində mütləq olmalıdır. Suya vurulan xlor isə mikrobları öldürür. Lakin ərpin yaranmasının səbəbi xlor və ya palçıq deyil. Mütəxəssislər bildirirlər ki, tərkibində mineralların miqdarı çox olan suyu qaynatmaq mənasızdır. Çünki bütün minerallar çaydanda ərpə çevrilir. Əgər çaydanda ərp əmələ gəlirsə, deməli, siz tərkibində kalsium və ya başqa bir mineral çox olan sudan istifadə edirsiniz. Belə suyu qaynatmadan içmək lazımdır. Əgər onun tərkibinə bakteriya, virus düşmədiyinə əminsinizsə...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018



# Prezident İlham Əliyev Belarusda mühüm açıqlamalar verdi

## Azərbaycanla Belarus arasında 10-a yaxın əhəmiyyətli sənəd imzalandı





**Azərbaycan prezidenti İlham Əliyev Belarusa rəsmi səfər edib. Noyabrın 19-da prezident İlham Əliyevin Belarus prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları görüşdə çıxış ediblər. Aleksandr Lukaşenko İlham Əliyevi salamlayaraq bildirib ki, Belarus sizi gözləyirdi: "Biz bunu çoxdan gözləyirdik. Azərbaycan haqqında çox danışırdılar. Dediyim kimi, bunun səbəbləri çox idi. Səbəblər əsasən xoşniyyətli idi. Belaruslar Azərbaycanı bizə çox dost olan, bizim yaxşı münasibət bəslədiyimiz qardaş respublika kimi qəbul edirlər. Bu, həm prezidentlər arasında, həm hökumətlərarası komissiyada, həm də ticari-iqtisadi sahədə münasibətlərə aiddir. Bunu demək kifayətdir ki, təkcə son bir ildə Belarus ilə Azərbaycan arasında ticarətin həcmi təqribən 3,5 dəfə artıb.**

Bir daha təsdiqləmək və Sizi əmin etmək istəyirəm ki, bizim münasibətlərimizdə heç vaxt qapalı mövzu olmayacaq. Biz bir dövlətdə yaşamışıq. Sizinlə çox yaxın insanlarıq. Kiminsə bunu istəyib-istəməməsindən asılı olmayaraq, bizim köklərimiz sovet dövrünə və bəlkə daha uzağa gedib çıxır-10-15 nəsil bundan əvvəlki həmvətənlərimiz sizin həmvətənlərinizlə yaxşı münasibətdə olublar... Bizim bütün sahələrdə - həm ticari-iqtisadi, həm diplomatik, həm siyasi münasibətlərimiz yaxşıdır, hərbi sahədə yaxşı münasibətlərimiz var. Lakin mövcud münasibətləri daha da genişləndirmək mümkündür, buna çalışmaq lazımdır. Buna görə əminəm ki, sizin Belarusa bugünkü səfəriniz perspektivdə bizim münasibətlərimizin möhkəmlənməsi yolunda yeni addım olacaq".

**Prezident İlham Əliyev isə çıxışına dəvət üçün belaruslu həmkarına təşəkkür etməklə başlayıb. Yenidən qardaş Belarus torpağında olmağına çox şad olduğunu deyən İlham Əliyev qeyd edib ki, bu səfər Belarusa ilk səfəri deyil:** "Mən Belarusda tez-tez oluram, Siz də Azərbaycana tez-tez rəsmi səfərlər edirsiniz. Bu, bizim yaxşı münasibətlərimizin, məhz ölkələrimiz arasında çox yaxın dostluq əlaqələrinin göstəricisidir. Bu əlaqələrin çox mühüm tarixi aspekti var. Xalqlarımız onilliklər boyu bir-biri ilə fəal ünsiyyətdə olub, əməkdaşlıq ediblər, müstəqillik dövründə isə bu əməkdaşlıq, əlbəttə ki, tamamilə yeni səviyyəyə çatıb.

Bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərimizlə bağlı müəyyən hadisələri yada salanda bizim cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır. Vacib olan odur ki, bizim dostluq əlaqələrimiz ölkələrimizin cəmiyyətləri tərəfindən də çox müsbət qəbul edilir. Bilirəm ki, Belarusda da Azərbaycana çox xoş münasibət bəsləyirlər, Azərbaycanda isə Belarusu həqiqətən qardaş ölkə və nəinki keçmiş SSRİ məkanında, həm də dünyada Azərbaycanın ən yaxın tərəfdaşlarından biri hesab edirlər. Bunun səbəbləri çoxdur, o cümlədən Sizinlə şəxsi münasibətlərimiz. İnsanlar bütün bunları - bizim məsələləri necə həll etməyimizi, qarşıya qoyulmuş hədəfə doğru necə getməyimizi görür və qiymətləndirirlər. Son illər bizim münasibətlərimizin fəallaşması, Sizinlə razılaşdırdığımız məsələlərin həlli dövrüdür. Münasibətlərimiz məhz onunla fərqlənir ki, biz razılığa gəldiyimiz bütün məsələləri yerinə yetiririk. Biz bütün beynəlxalq qurumlarda bir-birimizi dəstəkləyirik, əməkdaşlıq edirik, Sizin qeyd etdiyiniz kimi, ticari-iqtisadi əlaqələrimiz möhkəmlənir. Sənaye kooperasiyası çox fəal inkişaf edir. Hərbi-texniki, mədəniyyət, təhsil sahələrində əməkdaşlığın da yaxşı tarixi var. Yəni biz bütün istiqamətlərdə müsbət, yaxşı əhval-ruhiyyə, konkret nəticələr görürük və əlbəttə, əminəm ki, mənim budəfəki səfərim həm görülmüş işləri müzakirə və təhlil etmək, onlara müəyyən yekun vurmaq, həm də gələcək əməkdaşlıq, yaxınlaşma yollarını müəyyən etmək üçün bir imkandır. Əminəm ki, bu gün biz bu istiqamətdə mühüm qərarlar qəbul edəcəyik".

İlham Əliyev çıxışının sonunda A.Lukaşenkonu Azərbaycana növbəti rəsmi səfərə dəvət edib.

Təkbətək görüş başa çatandan sonra prezident İlham Əliyevin və prezident Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatını prezident İlham Əliyev və prezident Aleksandr Lukaşenko imzalayıblar. Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında sosial-əmək sahəsində əməkdaşlıq məsələləri üzrə Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Belarusun əmək və sosial müdafiə naziri İrina Kosteviç imzalayıblar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarus Respublikasının Rabitə və İnformasiya Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Belarusun rabitə və informasiya naziri Konstantin Şulqan imzalayıb.

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 17 oktyabr 2006-cı il tarixində Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinə dair 2019-2021-ci illər üzrə Kompleks Tədbirlər Planı"nı Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Belarusun fövqəladə hallar naziri Vladimir Vaşenko imzalayıblar.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsi arasında hava hücumundan müdafiə silah və texnikasının təchiz olunması sahəsində ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Belarusun Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko imzalayıblar.

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Belarusun kənd təsərrüfatı nazirinin müavini Vladimir Qrakun imzalayıblar.

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Belarus Respublikası Məhkəmə Ekspertizası Dövlət Komitəsi arasında məhkəmə-ekspertiza fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov və Belarusun Məhkəmə Ekspertizası Dövlət Komitəsinin sədri Andrey Şved imzalayıblar.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu və Belarus Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın baş prokuroru Zakir Qaralov və Belarusun baş prokuroru Aleksandr Konyuk imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun daxili işlər naziri İqor Şuneviç imzalayıb.

Sənədlərin imzalanmasından sonra ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi olub. Azərbaycanın və Belarusun dövlət başçıları markaları xüsusi ştamplarla möhürləyiblər, həmçinin üzərində marka olan zərfi imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra prezident İlham Əliyev və prezident Aleksandr Lukaşenko mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Qeyd edək ki, bu səfər prezident İlham Əliyevin Belarusa sayca 5-ci səfəridir. Belarus lideri Aleksandr Lukaşenko isə artıq 4 dəfə Bakıda olub.

Azərbaycanla Belarus arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol 11 iyun 1993-cü ildə imzalanıb. 2006-cı ilin fevral ayında Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda səfirlikləri açılıb...

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, Azərbaycanla Belarus arasındakı ikitərəfli münasibətlər çox yaxın dostluq münasibətləri, yüksək tərəfdaşlıq səviyyəsində olan münasibətlərdir. İki ölkə prezidenti arasında olan şəxsi dostluq münasibətləri də ölkələrimiz arasında münasibətlərin daha da yüksək səviyyəyə gəlib çatmasında ciddi təsiri var. Azərbaycanla Belarusu bir çox məsələlər bağlayır. Belarus hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, Azərbaycanın separatizmlə apardığı mübarizəni dəstəkləyib. Bizi birləşdirən amillər var:** "Müstəqilliyimiz qurulundan bəri bu illər ərzində ölkələrimiz arasında kifayət sayda sənəd imzalanıb, normativ baza formalaşıb, konkret layihələr həyata keçirilib. Ticarət dövriyyəsi hər il 1 milyarda yaxın təşkil edir. Belarus Azərbaycan üçün vacib tərəfdaşlardan biridir. Belarus lideri dəfələrlə vurğulayıb ki, Azərbaycan Cənubi Qafqazda Belarus üçün ən prioritet tərəfdaşdır. Bu zəmin əsasında münasibətlərimiz inkişaf edir. Azərbaycan və Belarus arasındakı iqtisadi münasibətlər qeyri-neft sektorunun inkişafı strategiyasına uyğun olaraq inkişaf edir. Xüsusilə istehsal və elmi-texniki kooperasiya, informasiya və kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, səhiyyə və idman sahələrində uzunmüddətli birgə layihələr həyata keçirilir. Azərbaycan Belarusun hərbi sənaye məhsullarını alır. Azərbaycan-Belarus iqtisadi əməkdaşlığının daha geniş potensialı var və hər il bu əməkdaşlıq daha da genişlənməkdədir. Azərbaycan məhsullarının Belarus bazarında təmsil olunmasının artırılması üçün mütəmadi tədbirlər görülməkdədir. Minsk şəhərində artıq Azərbaycan Ticarət Evi yaradılıb. Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərərək, Belarusda Azərbaycan məhsullarının satışını təşkil etməyə başlayıb.

Belarusdan Azərbaycana maşın və avadanlıqlar, ərzaq məhsulları idxal edilir. Faktlar da təsdiqləyir ki, iki ölkə arasında siyasi və diplomatik əlaqələr bütün sahələrdə müsbət nəticələr verir, ticarət dövriyyəsinin həcmi artır. Təbii ki, bütün bunlar hər iki tərəfin maraqlarına uyğundur".

**Politoloq vurğuladı ki, Belarus xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman Azərbaycanın haqlı mövqeyini, ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumi prinsip və normaları, dövlət sərhədlərinin pozulmazlığı əsasında tezliklə tənzimlənməsi uğrunda çıxış edir:** "Belarus və Azərbaycan beynəlxalq qurumlarda bir-birini fəal dəstəkləyir. İki ölkə bir-birini birinin üzv olmadığı təşkilatlarda da dəstəkləyir. Bu yaxınlarda KTMT-nin Astana sammitində Belarusun mövqeyi bunun növbəti sübutu idi. Azərbaycan-Belarus münasibətlərinin etibarlı dostluq münasibətləri səviyyəsində olmasını təsdiqləyən çoxsaylı faktlar sadalamaq olar. Məsələn, 2011-ci ildə Belarusda maliyyə problemləri yaranan zaman Azərbaycan Belarusa 300 milyon dollar məbləğində kredit ayırmışdı. Azərbaycan sərhədlərini qanunsuz keçən və konstitusiyamızı pozan Aleksandr Lapşinin Minskdə həbs edilməsi və Rusiyanın təzyiqlərinə baxmayaraq Belarus hökumətinin qətiyyət göstərib Lapşini Azərbayacana təhvil verməsi də münasibətlərimizdə etibarlılığın göstəricisi idi".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

**Yeni Azərbaycan Partiyasının qurucularından sayılan sabiq deputat, iqtisadçı professor Əli Əlirzayev "Yeni Müsavat"a geniş müsahibə verib. Onunla son günlər əsas müzakirə mövzusuna çevrilən BDU-nun rektoru Abel Məhərrəmovun vəzifəsindən azad edilməsi və eləcə də gündəmdə olan digər məsələlərlə bağlı söhbət etdik.**

# "Vaxtilə nazirlər məni qəbul edirdi, indi mühafizəçi belə görüşmür"

**Əli Əlirzayev:** "İndiki şərtlərlə Azərbaycan insanı istəmir ki, Sosial Müdafiə Fonduna pul keçirsin; deyir ki, 65 yaşına qədər yaşayacağımı bilmirəm"

***- Əli müəllim, hazırda nə işlə məşğulsunuz?***

- İqtisad Universitetində professoram. Elmi məqalələr, dissertasiyalar yazıram. Yaxşı tələbələrim var. Kitablar da yazıram. Hələ elə bir yaşım yoxdur, qarşıda görəcəyim çox işlər var.

***- Əli bəy, partiyadaşınız, YAP-ın Siyasi Şurası və İdarə Heyətinin üzvü olan Abel Məhərrəmovla bağlı son günlərdə baş verənləri necə dəyərləndirirsiniz?***

- Bir şəxsin başına bu cür işlər gələndə onun haqqında danışmaq nə şəxsiyyətimə, nə xarakterimə, nə də nəslimə yaraşır. Hətta məndən kiminsə xoşu gəlməsə də, onun haqqında da danışmaram. Abel müəllimi çoxdan tanıyıram. YAP-ın yarandığı ilk illərdə onu tanımırdım. Universitetə gedəndə bizi yüksək səviyyədə qarşılayırdı. Heydər Əliyevin siyasətini çox bəyənir, onu sevirdi. Bunun əsasında o, millət vəkili seçildi. Rektor da olmağı təsadüfi deyildi. İnsan hər zaman səhv edə, yıxıla bilər. Onunla çox yaxın olmamışam. Heç Milli Məclisdə belə yaxınlığımız olmayıb. Onunla bağlı baş verən hadisələrdən xəbərsiz idim. Kənar şəxslər bu barədə mənə məlumat verdilər. Hesab edirəm ki, Abel Məhərrəmovla bağlı baş verənlər olmamalı idi. İndi onun harada hansı səhvləri etdiyini bilmirəm. Mən də xarici ölkələrə az səfər etməmişəm. Düşmənlərlə belə üz-üzə oturmuşam. Ermənilərə açıq şəkildə sözümü demişəm. Hər birimiz dövlətimizi və millətimizi qorumalıyıq. Abel müəllim sahəsi üzrə elmimizə töhfələrini verib. Bir faktı deyəcəm. 1998-ci ildə rəhmətlik Heydər Əliyev məni yanına çağırıb dedi ki, sizin universitetə kimi rektor qoyaq. Açıq şəkildə məni qoymayacağını dedi. O zaman İqtisad Universitetində münaqişələr var idi. Sonralar gördüm ki, tam doğru qərar imiş. Abel müəllim Qərbi Azərbaycanda doğulub. O yerlərin insanları möhkəm adamlardır. Amma siyasət elə bir şeydir ki, gərək səhv etməyəsən. Səhv etdiyin zaman başına çox işlər gəlir. Abel Məhərrəmovun qardaşlarını tanıyıram. Yaxşı ailədirlər.

***- Qurucusu olduğunuz bir partiyanın funksionerinin bu cür hallara yol verməsi sizi təəssüfləndirirmi?***

- YAP şəxslərdən ibarət deyil. Hər zaman bu partiyanın yaradıcılarından biri kimi o partiya ilə fəxr etmişəm. Bu partiyadan heç zaman imtina etməyəcəm, məni lap çıxarsalar belə. YAP-ın Siyasi Şurasından çıxsam da, Səbayel rayon təşkilatında Siyasi Şura üzvüyəm. Biz bu partiyanı yaradıb, Heydər Əliyevin başına yığışdıq. Düşünmürdük ki, nə zamansa hakimiyyətə gələrik. Biz bir dəyər ətrafında yığışmışdıq və bu dəyəri heç zaman ucuz tutmaram. Yeri gələndə YAP yolunda sona qədər gedərəm. Nələrsə bu gün unudula bilər, yaxud keçmişi unuda bilərlər. Amma kimliyindən asılı olmayaraq keçmişə hər zaman nəzər salmaq lazımdır. Baxıb demək lazımdır ki, bunun da xidmətləri olub, ona da hörmət etmək lazımdır. Görürsən ki, sadə bir adam, polis və ya qeyrisi olsun, insanın üstünə elə qışqırır ki, sadəcə, dəhşətə gəlirsən. Belə şeylər olmamalıdır. Bu, millətin çatışmazlığıdır.

***- Hazırkı YAP rəhbərliyindən kimlərlə əlaqələriniz qalıb? Sizi xatırlayanlar varmı?***

- Açığı, əlaqəm olanların çoxu rəhmətə gedib. Amma Maksim Musayev, Eldar İbrahimov, Siyavuş Novruzov kimi şəxsləri görmüşəm. Köhnələr bunlardır. Çoxları isə Heydər Əliyev hakimiyyətə gələndən sonra partiyaya gəliblər.

***- Parlamentin son iclaslarında büdcə müzakirələri getdi. İclasları izlədinizmi və dövlət büdcəsi barədə nə deyə bilərsiniz?***

- Büdcədə inkişaf var. Artım müşahidə olunur. Dünyada gedən iqtisadi münaqişələrə baxanda az dirçəliş var. Amma üstün tərəflər odur ki, qeyri-neft sektorunda ciddi artım var. Sosial sahələrdə də inkişaf nəzərə çarpır. Təbii ki, problemlər də az deyil. Pensiyada yaş hədlərində müəyyən dəyişikliklər edilməlidir. Sosial-müdafiə məsələlərində islahatlar ola bilər. Elə etmək lazımdır ki, insanların kənd yerlərindən şəhərə axınlarının qarşısı alınsın. Buna potensialımız da var. Turizmin inkişafına diqqət daha çox artırılmalı, sahibkarlığa daha ciddi önəm verilməlidir. Sovet dövründə yoxsulluq yox idi. Amma indi yoxsulluqdan danışırıq. Yoxsulluq aradan qaldırılmalıdır. Deputat olduğumuz vaxtlarda da bu cür fikirlərimi daim səsləndirmişəm. Mən Heydər Əliyevin iqtisadi siyasətini o zaman yazmışdım. Kitabımı da ona vermişəm. Milli Məclisdə əyləşənlər proqnozları, hesabları bilməlidirlər. Büdcə proqnozdur, statistika deyil. O elə olmalıdır ki, passiv olmasın. Yəni iqtisadiyyatın strukturlarını dəyişmək qabiliyyəti olsun.

***- Parlamentin son iclasında deputat Vahid Əhmədov pensiyalardakı yaş həddini tənqid etdi. Nazir Sahil Babayev isə yaş hədlərinin normal olduğunu söylədi. Siz necə düşünürsünüz?***



"O deputatların heç maaşlarına ehtiyacları da yoxdur"

- Bu yaralı yerimdir. Pensiyalarda yaş həddi mütləq aşağı olmalıdır. Bunu alim kimi deyirəm. 65 yaş indiki şəraitdə çoxdur. Bunu müzakirə etmək lazımdır. Kəndlərdə görürsən ki, 50-55 yaşı var, amma işləyə bilmir. Nəticədə dolanışığı çox ağırlaşır. 60-65 yaşında bir insan harada işləyəcək? İndiki şərtlərlə Azərbaycan insanı istəmir ki, Sosial Müdafiə Fonduna pul keçirsin. Deyir ki, 65 yaşına qədər yaşayacağımı bilmirəm. Bu yöndə müəyyən işlər görmək lazımdır. Orta yaşam dövrünün neçə yaş olduğunu deyə bilmərəm. Bunu necə hesablayıb deyirlərsə, bu onların öz işidir. Azərbaycan əhalisi bu günü üçün çalışır. İnsanlar istəmir ki, bu gün qazandıqları pulu 65 yaşından sonra alacağı pensiya üçün Sosial Müdafiə Fonduna keçirsin.

***- Milli Məclisin son iclaslarında deputatlar maaşlarının azlığından gileyləndilər. Sizcə, onların maaşları artırılmalıdır?***

- Mən də deputat pensiyası alıram. Təbii ki, maaşlar artırılanda mənimki də artırılacaq. Amma onların maaşları artırılsa, ölkədə digər əmək haqları da artırılmalıdır. İstənilən halda bu, narazılığa səbəb olmamalıdır. Belə fikirlər olmamalıdır ki, niyə filankəsin maaşı artır, amma mənimki yox. Əgər inkişaf varsa, hansı istiqamətlərdə maaşların verilməsindən asılı olmayaraq, uyğun faizlərlə artımlar edilməlidir. Amma bir şeyi nəzərə almaq lazımdır ki, 20-25 il deputat olanlar var. Lakin ölkənin problemlərinin həllinə imkanları daxilində kömək etmirlər. Özlərinin şəxsi biznesləri var və bunu böyütməklə məşğuldurlar. Həmin deputatların heç maaşlarına ehtiyacları da yoxdur. Qanunla deputat bizneslə məşğul olmamalıdır. Mən də deputat olmuşam, amma bir su köşküm də yoxdur ki, gedib su içim. 4-5 universitetdə işləmişəm. İndi də yaşımın bu vaxtında iş dalınca ora-bura qaçıram. Çünki yaşamaq üçün ehtiyaclarımı ödəyə bilmirəm. Pensiyam da təbii ki, buna çatmır. Hamı bu vəziyyətdədir. Maaşlarda artımlar bütün sahələri əhatə etməlidir. İndiki vaxtda ehtiyaclarımız çoxalıb. Deputatların aldıqları maaşlarla dolana bilməmələri normaldır. Bir şeyi nəzərə almaq lazımdır ki, onların xərcləri özlərinə uyğun şəkildədir. Şəxsən mən həyat yoldaşımla özümün müalicəsi üçün ayda min manat dərmana verirəm. Deputatlar maaşlarının artırılmasını istəyirlər, qoyun istəsinlər, amma unutmasınlar ki, səmərəli işləmək lazımdır. Deputat statusu çox gözəl bir şeydir. Mən deputat dadını görmüşəm. Hara getmişəmsə, yolum açılıb. Vaxtilə nazirlər məni qəbul edirdi, deputatlıqdan düşdükdən sonra mühafizəçi belə qəbul etmir. Deyir ki, deputat olmusan, nə olsun ki. Bax belə hallar insana pis təsir edir. Əgər deputata beş min insan səs veribsə, bunu doğrultmaq lazımdır. Bir rayon təsəvvür edin ki, ona səs verib. O, məhsuldar çalışarsa, bir rayonun problemlərinin həllinə ciddi köməyi dəyər. İnsanların haqları uğrunda həmin şəxslər mübarizə aparmalıdırlar. İstənilən halda deputatlara hörmət etmək lazımdır, deputatlıqdan gedənlərə də bu hörmət qoyulmalıdır. Türkiyədə olduğu kimi onların nüfuzlarını qorumaq lazımdır. Niyə mən deputatlıqdan gedəndən sonra bəzi yerlər tərəfindən qəbul olunmuram? Belə halları görən deputat deyir ki, niyə məhsuldar çalışmalıyam, onsuz da səhəri gün başqasının gününə düşəcəm. (Gülür).

***- Parlamentin buraxılacağı, növbədənkənar seçkilərin keçiriləcəyi barədə söhbətlər dolaşır...***

- İndiki parlamentin 2020-ci ilə qədər vaxtı var. İki il müddəti qalan parlamenti buraxmağın nə mənası var? Mənə elə gəlir ki, parlamenti buraxmağa ehtiyac yoxdur. Sadəcə, Milli Məclis məhsuldarlığı artırmalı, sosial ədaləti bərqərar etməlidirlər. Guya parlament buraxılsa, yeni deputat olsalar, indikindən yaxşı olacaqlar? İndi deputatlar var ki, onların çoxları ilə zamanında birlikdə çalışmışam, məni görəndə deyirlər ki, yerin görünür. Düşünürəm ki, hazırda parlamentdə olan bəzi deputatlar dəyişdirilməməlidir.

***- Əgər parlament buraxılıb yeni seçkilər keçirilsə, yaxud 2020-ci ildə seçkilər olsa, iştirak edəcəksiniz?***

- 2020-ci ilə iki il var. O müddətdə sağ olsam, yaxud görsəm ki, mənə qarşı münasibət yaxşıdır, arxamda dayananlar var, o zaman fikrimi deyərəm. Namizəd olmaq üçün 450 min imza yığmağın özü də çətindir. İndi elə də ciddi qüvvəm də yoxdur. Partiyam da mövcud deyil ki, insanları imza yığmağa cəlb edə bilim. İndidən nəsə bir söz deyə bilmərəm.

***- Azərbaycan dili ilə bağlı müzakirələr son aylarda daha da aktuallaşıb. Rusdillilərin artması qınaq obyektinə çevrilib...***

- Dil bilmək yaxşı şeydir. Dərs dediyim tələbələrim var ki, onlar ingilis dili öyrənirlər. Səbəbini soruşuram, deyir ki, magistraturaya hazırlaşıram, yaxud da haradasa işləyəcəyini deyir. Mən də rus dilini əla bilirəm. Hətta danışanda deyirlər ki, bunu harada öyrənmisən. Amma öz dilini unudub, ailədə, küçədə xarici dildə danışmaq düzgün deyil. Dil bilməyi qadağan etmək lazım deyil. Lakin Azərbaycan dilini hər yerdə birinci sıraya qoymaq lazımdır. Məktəblərdə əsas dil də ana dilimiz olmalıdır. Ailədə uşaqları rus dilini öyrənməyə məcbur etmək, rus dilində danışmağa təhrik etmək yolverilməzdir. Azərbaycan dili sevimli dilimizdir. Onu qorumaq və inkişaf etdirmək lazımdır.

***- Ana dilimizdə bərbad danışıq da son günlərin əsas müzakirəsinə çevrilib. Xarici işlər naziri Elmar Məmmədyarovun Türkiyədəki çıxışı bu istiqamətdə tənqidləri daha da artırdı...***

- Başqa şəxslərin dilimizdə necə danışdıqları barədə onlara yönəlik heç nə deməyəcəm. Kim nə cür danışır, özü yaxşı bilir, cəmiyyət də görür. Prezident İlham Əliyev Azərbaycan dilində də, ingilis və rus dillərində də danışanda hamı ləzzət alır. Hansı dildə danışırsansa, gərək təmiz danışasan. Rusdilliləri müəyyən mənada qınaya bilmirəm. Çünki onlar orta məktəbi bu dildə oxuyublar, yaxud xaricdə təhsil alıblar. Amma həmin şəxslər ana dilimizdə təmiz danışmağı öyrənməlidirlər. Bunun üçün hətta müəllim də tutmalıdırlar. Bir insan kimi Elmar Məmmədyarova böyük hörmətim var. Savadlı diplomatdır. Öz işini mükəmməl bilir.

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Noyabrın 16-da Göyçay rayonunun Hacı Rəhim Əfəndi adına Qaraman kənd tam orta məktəbinin 115 illiyi münasibətilə təntənəli tədbir keçirildi. Məktəbin əsası 1903-cü ildə Şirvan bölgəsində xeyriyyəçiliyi və maarifpərvərliyi ilə tanınan Hacı Rəhim Əfəndi tərəfindən qoyulub.**



# Elxan Süleymanovdan Göyçaydakı 115 illik məktəbə orijinal hədiyyə

## Millət vəkili böyük tarixi olan elm ocağına yubileyində Azərbaycanın inkişafını əks etdirən rəsm əsəri bağışladı; daha bir şagirdə əlaçı təqaüdü təyin etdi









Təntənəli mərasimdə rayon rəhbərliyi, Qaraman məktəbinin adlı-sanlı yetirmələri, rayon ziyalıları və kənd sakinləri iştirak edirdilər. Mərasimi giriş sözü ilə məktəbin direktoru Məlahət İsmayılova açdı. Direktor Qaraman kənd məktəbinin şanlı tarixi, onun Azərbaycan elminə bəxş etdiyi görkəmli ziyalılar haqqında danışdı.

Tədbirdə çıxış edən Hacı Rəhim Əfəndinin nəvəsi, AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanov Azərbaycan Prezidenti İlham Əliyevin və birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsilə, elmə daim xüsusi diqqət yetirdiklərini diqqətə çatdırdı.

Millət vəkili Qaraman kənd orta məktəbi haqda danışaraq bildirdi ki, ötən 115 il ərzində bir neçə nəsil dəyişib: **"Dəyişməyən isə məktəbin böyük ənənələridir".**

Millət vəkili qeyd etdi ki, ötən dövr ərzində məktəbin minlərlə məzunu yetkin həyata vəsiqə qazanıb və ictimai həyatın müxtəlif sahələrində uğurla çalışıb. E.Süleymanov məktəbin bir çox adlı-sanlı müəlliminin və məzunlarının adlarını qürurla sadaladı.

Elxan Süleymanov Qaraman məktəbinin 115 illik yubileyinə əliboş gəlməmişdi. Millət vəkili öncə məktəb üçün hazırlatdığı unikal hədiyyəni təqdim etdi. Bu, Elxan Süleymanovun ideyası və təşəbbüsü ilə əməkdar rəssam Elşən Hacızadənin üzərində ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmləri olan əsəridir. Əsərdə Heydər Əliyev və İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın davamlı və dayanıqlı inkişafı əksini tapır.

Daha sonra Elxan Süleymanov ikinci hədiyyəsini elan etdi: **"Noyabr ayından etibarən daha bir əlaçı şagirdə təqaüd təyin edirəm. Komissiya seçimləri elan edib ən layiq olan şəxsi müəyyənləşdirəcək və həmin şagird noyabrdan təqaüdü alacaq".**

Tədbirdə həmçinin Göyçay rayon İcra Hakimiyyəti başçısının müavini Zivər Zeynalova, rayon təhsil şöbəsinin müdiri Elnur İsmayılov, dil-ədəbiyyat müəllimi Dilşad Süleymanova, əməkdar müəllim Qurban Qurbanov, tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlı, Elxan Süleymanovun təsis etdiyi Hacı Rəhim Əfəndi adına təqaüdə hələ 1993-cü ildə layiq görülmüş jurnalist Elşad Məmmədli (bu yazının müəllifi-red.), Qaraman kənd orta məktəbinin yetirməsi olan Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşı Fərhad Süleymanov, fəlsəfə doktoru, əməkdar müəllim Pərviz Yəhyalı və digər şəxslər 115 yaşlı məktəbin müəllim və şagird kollektivini əlamətdar yubiley münasibətilə təbrik etdilər.

Tədbirdə AVCİYA-nın layihəsi çərçivəsində nəşr olunan "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabı da təqdim olundu. Təntənəli hissədən sonra Qaraman kənd tam orta məktəbinin şagirdlərinin ifasında bədii kompozisiya nümayiş etdirildi.

Xatırladaq ki, əsası Hacı Rəhim Əfəndi tərəfindən 1903-cü ildə qoyulan Qaraman kənd orta məktəbinin binası onun nəvəsi, millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə 2017-ci ildə yenidən, tam müasir formada inşa olunub.

❑ **Elşad MƏMMƏDLİ,**
**Musavat.com**

# Gələn il Bakı daha bir beynəlxalq konfransa ev sahibliyi edəcək



**Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin narkotiklərlə mübarizə üzrə beynəlxalq konfransı Bakıda keçiriləcək.**

"Trend"in məlumatına görə, bunu Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri, baş nazirin müavini Əli Həsənov bu gün Bakıda keçirilən BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə Alt Komissiyasının 53-cü sessiyası zamanı bildirib.

Onun sözlərinə görə, bu barədə konfrans təşkilatçıları Azərbaycan prezidentinə müraciət edib: "Cənab prezident bu konfransın keçirilməsinə razılıq verib. 2019-cu il aprelin 16-18-də konfransın Bakıda keçirilməsi qərara alınıb. Artıq bununla bağlı təşkilat komitəsi də yaradılıb. Tədbirdə 120 dövlətdən 500-ə qədər nümayəndə olacaq. Tədbirdə bəzi ölkələrin başçıları da iştirak edəcək".

Ə.Həsənov bildirib ki, bu gün Azərbaycan bütün beynəlxalq təşkilatların diqqət mərkəzində olmaqla beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

# Eldar Əzizovdan gözləntilər - nələri dəyişə biləcək...

## Əzim Məsimov: "BŞİH-in adı qalıb, Bakı "hökuməti"nin əvvəlki səlahiyyətləri bərpa olunmalıdır"



**Eldar Əzizovun Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı təyin edilməsindən sonra onun bu vəzifədə hansı işlər görəcəyi çoxlarını maraqlandırır.**

Məlumdur ki, son illərdə BŞİH-in çoxsaylı səlahiyyətləri əlindən alınıb. 2016-cı ildə prezidentin fərmanı ilə Dövlət Reklam Agentliyi yaradılıb. Fərmanda deyilirdi ki, agentlik ölkə ərazisində açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, həmin reklam daşıyıcıları üzərində yerləşdirilməsi nəzərdə tutulan reklamların istehsalı və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti təmin etmək məqsədilə yaradılıb. Bununla da Bakı şəhərində reklam yerləşdirilməsi kimi çoxmilyonlu gəlir mənbəyi BŞİH-in əlindən alınıb. Nəticədə bu ilin yanvarında Bakı Şəhər İcra Hakimiyyətinin strukturu olan Reklam və İnformasiya İdarəsi ləğv olunduğunu elan edib.

2016-cı ildə həmçinin BŞİH-in nəzdində olan parkinqlər özəlləşdirilməyə çıxarılıb. Bunlardan biri Azadlıq meydanındakı, digəri isə Füzuli küçəsindəki (Qış bağının altındakı) yeraltı avtomobil dayanacaqlarıdır. Hər iki kifayət qədər gəlirli parkinq 2014-cü ildən məhz BŞİH-in nəzdində fəaliyyət göstərirdi.

Bundan əlavə, Bakı şəhəri üzrə parkinqlərə və duracaq yerlərinin təşkili üçün parkomatlara nəzarət BŞİH-dən alınaraq Bakı Nəqliyyat Agentliyinə həvalə olunub. Paytaxtda avtobus marşrutlarını müəyyən etmək, duracaqlar yaratmaq, taksi fəaliyyəti ilə bağlı məsələlər də BŞİH səlahiyyətlərindən çıxarılıb.

Nəhayət, bu ilin avqustunda prezidentin daha bir fərmanı ilə Bakı "hökuməti"nin ən ciddi rıçaqlarından biri olan Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və Şəhərsalma Baş İdarəsi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyinə verilib.

Fərmana əsasən, Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsini (tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən verildiyi hallar istisna olmaqla) Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir.

Beləliklə, BŞİH-in əsas gəlir mənbələri olan böyük sahələr ondan alınıb. Belə bir şəraitdə E.Əzizov nə edə biləcək? Bakı həyatında nələri dəyişməyə nail ola bilər?

**Paytaxt təsərrüfatına yaxından bələd olan, Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov bildirir ki, Bakı şəhər hakimiyyətinin əksər səlahiyyətləri, fəaliyyət sahələri əlindən alınıb:** "Paytaxt şəhərini idarə edən qurum faktiki olaraq "ikinci hökumət" sayılır. Bu, sovet dövründə də belə olub, indi də dünya ölkələrində belədir. Şəhərin bütün təsərrüfatı - polisindən tutmuş, vergisinə, kanalizasiyasına qədər - bu hökumətə tabe olmalıdır. Vaxtilə belə idi, amma yavaş-yavaş hər şey alınıb. Bu gün Bakı Şəhər İcra Hakimiyyətinin quru adı var. Bələdiyyənin adı var, özü yoxdur. İcra hakimiyyətinin isə əksər fəaliyyət sahələri əlindən alınıb".

**Mütəxəssis deyir ki, Bakı "hökuməti"nin nəyəsə nail olması üçün ilk növbədə normal səlahiyyətləri olmalıdır:** "Deyirlər ki, tutalım, Əhmədlidə bir binanın zirzəmisinə su dolub, "Azərsu" gəlib həll etsin. Axı bunun "Azərsu"ya nə aidiyyəti? Bina kimin balansındadırsa, bu işə də o baxmalıdır. Şəhərin yol təsərrüfatını alıblar, su təsərrüfatını alıblar. Hərəsi bir qurumdadır, ona görə də hər şey baş-ayaq gedir. Kim harada istəyir orada tikir, kim istəyir sökür. Şəhərin baş planını hələ də hazırlamayıblar. 20 ilə yaxın Bakıya rəhbərlik edən adam buna nail ola bilməyib.

Bakı "hökuməti"nin səlahiyyətləri bərpa olunmalıdır. İlk növbədə şəhərin baş planı hazırlanmalıdır. İkinci növbədə isə şəhərin strukturu qurulmalıdır. Bakının hüquqi statusu dəqiqləşməlidir, bunsuz şəhərin fəaliyyət göstərməsi mümkün deyil. Belə dağınıqlığın nəticəsidir ki, məsələn, Xocasəndə bütün dağ yamacını tikiblər. Bakı ətrafında ikinci şəhər böyüklüyündə yaşayış massivləri salınıb - heç bir plansız. Kim tikib, kim imkan yaradıb belə biabırçılığa? Heç yerdə də kanalizasiya çəkilməyib, indi qalıblar sürüşmələrin əlində. Hələ bir Yaponiyadan alim gətirirlər problemi həll etmək üçün. Bu, nə işdir ki, Azərbaycanda onu bilən yoxdur?"

Ə.Məsimovun fikrincə, əvvəlki səlahiyyətləri bərpa olunmasa, BŞİH-in yeni rəhbərinin nələrsə əldə etməsi mümkün deyil.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018



# Ölülər haqda qanun

Zamin HACI
zaminhaci@gmail.com

"Batan gəmiləri göstərirsiniz,
Yanan şəhərləri göstərirsiniz,
Siz məni göstərin televizorda"
*(Səməd Qaraçöp-ün şeirindən)*

**Həyatımızın bütün sferalarında qayda-qanun yaradılır, buna görə hökumətə dərindən minnətdarıq. Daha kimsə qabaqkı vaxtlarda elədiyi özbaşınalığı edə bilməz. AXC-Müsavat hakimiyyəti deyil ki, 2 ton çaxırı təyyarəyə vurub xaricdə satmağa aparasan? İndi dövlətimizin imici hər şeydən vacibdir. Adımız-sanımız var. Bütün region, bütün dünya gözünü bizə dikib. Belə bir vaxtda bəziləri hələ də 1988-ci ilin meydan hadisələrini təzədən törətmək istəyirsə, onlara sərt cavab verməliyik.**

Misal üçün, o vaxtlar görürdün bir dəstə avara tələbə çıxdı küçəyə, yürüş elədi Lenin meydanına tərəf (indiki Formula-1 meydanı o vaxt belə adlanırdı). Qabaqlarında da universitetin dekanı-zad gedirdi. İndi isə rektoru qovursan, binaya gedən yolları zirehli texnika ilə bağlayırsan, siçan-pişik idarəsini də göndərirsən bufetdəki qazanlarda tarakan bığı tapır. Vəssalam. Bununla binadan sekretni sənədlərin çıxarılması önlənir.

Yaxud millətin başı büdcə müzakirələrinə qarışdı, ara yerdə çox vacib bir qanunun qəbulu diqqətimizdən qıraqda qaldı. Həmin qanuna görə millət öz ölülərini indən belə ancaq qəbiristanlıqda basdırmalı olacaqdır. Yoxsa camaat lap ağını çıxartmışdı. Kimin kefi istəsə, şəxsi qəbiristanlıq açırdı. Küçədə ölü dəfn edirdilər. Bəzən dəfn etmirdilər, ölülər müasir parklarda işıqların altında oturub qəzet oxuyurdular. Televizorda "Haqqın dərgahı" verilişində bozbaş bişirməyin üsullarını öyrədən ölüyə şəxsən baxmışam. Ölülər qəzet çıxardır, futbol oynayır, maşın sürür, maklerlik edir, həccə gedir, sponsorluq edirdilər. Özbaşınalıq adi hal almışdı. Daha belənçik hallar qanunla qadağan olunubdur. Cəriməsi də minimum 500 manatdır. Birinci dəfə. Yəni ölünü bir dəfə qanunsuz şəkildə tutsalar 500 manat, ikinci dəfədə 1000 verirsən. Üçüncü dəfə, deyəsən, lap dollarla cərimə gəlir, dəqiq yadımda qalmayıb, kitab açmaq lazımdır.

Deputatlardan Səyavuş müəllim həmin qanunların müzakirəsi vaxtı xəstəxanalarımızın hüquqi statusu məsələsinə də toxundu, qeyd etdi ki, gərək biz xəstəxanalarımızı arendaya verək. Yaxşı təklifdir. Doğrudan da, elə xəstəxana var onun yerində taxta sexi açsan millətə daha xeyirli olar. Ən azı ayağı düzgün kəsməyi dülgərlərdən öyrənərlər. Ancaq fikrimcə Səyavuş müəllim burada bir qədər həyatdan geri qalmışdır. Bizim xəstəxanalar çoxdan arendaya verilibdir. Pulsuz səhiyyə deyə bir şey artıq qalmayıbdır. 20 ildən çoxdur belədir. Elə xəstəxana var baş həkim onun padvalında ərəb turistlər üçün bar açıb, tibb bacıları yarım aklad maaşla striptiz göstərirlər. Dolanmaq lazımdır. Baş həkim tanıyıram, xəstəxanada moyka düzəldib. Həm maşınları, həm əllərində ölən yetimləri yuyurlar. Savab işdir.

Yaxşı yadıma düşdü, qanunların qaynar müzakirəsi gedən vaxt hansısa deputatlar televiziyadan şikayətləndilər. Deyir biz burada qızıldan qiymətli söz qırıldadırıq, ancaq bizi çəkib millətə göstərmirlər. Bah. Guya bunlar "Ay Zaur" verilişidir, millət maraqla baxacaq. Ya da məhkəmə kiminsə köhnə arvadını təzə arvadıyla bir otaqda yaşamağa göndəribdir. Belə şeylər yoxdursa, nəyinizə baxacaqlar? Yenə AXC-Müsavat vaxtındakı kimi, Tahir müəllim hərdən qışqırsa bəlkə maraqlı olar.

Bir də bu "bizi televizorda göstərin" söhbəti köhnə lətifəni xatırladı. Deyir bir gün aktrisa rejissordan tələb edir: "Mənə tamaşada əsl şampan şərabı verməsəniz, oynamıram". Rejissor qımışır: "Problem yoxdur, əzizim. Ancaq o zaman gərək son pərdədə səni əsl güllə ilə vuraq". İndi çıxışını televizorda görmək istəyən deputatlar gərək seçkilər vaxtı da camaatın gözünə görünsünlər. Millət onların necə deputat olduğunu da bilsin. Yoxsa "atan soğan, anan sarımsaq, hardan oldun gülməşəkər" vəziyyəti yaranır.



# "Rus NATO-su"nda "soyuq müharibə" ruzigarı - Bakının "küləyi" və petrolu...

## Təşkilatda Ermənistana qarşı etimadsızlıq güclənir; səbəb həm də Azərbaycan faktorudur; Paşinyanı ən yaxşı halda məğlubiyyətə bərabər heç-heçə gözləyir; politoloqlar deyir ki...

**Azərbaycan prezidenti İlham Əliyev Belarusda rəsmi səfərdədir. Ziyarət çərçivəsində bir sıra mühüm sənədlər imzalanıb ki, bu da iki ölkə arasında əlaqələri daha yüksək səviyyəyə qaldıracaq, ikitərəfli münasibətlərə yeni və əlavə təkan verəcək. Söhbət həm də hərbi-texniki sahədə əməkdaşlığı dərinləşdirməkdən gedir.**

İki ölkə arasında dost münasibətlər həmçinin regional və beynəlxalq məsələlərdə bir-birinin köklü maraqlarını gözləməklə ortaq hərəkət etməyi nəzərdə tutur ki, bunu da Bakı və Minsk hələ ki uğurla uzlaşdıra bilir. İlham Əliyevin Belarus səfəri, səfər zamanı keçirilən görüşlər, əldə olunan anlaşmalar və verilən bəyanatlar buna bariz sübutdur.

*****

Azərbaycan üçün Belarusla isti əlaqələrin daha bir önəmi, onun işğalçı Ermənistanla birgə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT - "Rus NATO-su") təmsil olunması, eyni zamanda qurumda söz sahibi olmasıdır. Prezident İlham Əliyevin səfəri həm də KTMT daxilində baş katiblik məsələsi ilə bağlı Minsklə İrəvan arasında yaşanan gərgin dövrə təsadüf etməsi ilə diqqətdədir.

Məlumdur ki, Belarus lideri Aleksandr Lukaşenko bu məsələdə prinsipial mövqe tutur. O dərəcədə ki, artıq Ermənistan XİN və baş nazir əvəzi Nikol Paşinyan buna olduqca qıcıqlı, hətta diplomatik etiketə sığmayan tərzdə əsəbi reaksiya verib. Minskin cavabı da gözlənildiyi kimi, gecikməyib və çox sərt olub.

Məsələ ondadır ki, rəsmi Minsk blokda bütövlükdə Azərbaycanla münasibətlərə daha böyük önəm verdiyini nümayiş etdirir, nəinki "blok üzrə tərəfdaş və müttəfiq" Ermənistanla. İrəvanı təlaşlandıran ən əvvəl budur. Təbii ki, Bakı da təşkilat daxilində işğalçı ölkənin təklənmiş duruma və "izqoy" duruma düşməsində maraqlıdır. Buna xeyli dərəcədə nail də olunub. KTMT-nin 5 üzvündən (Ermənistan xaric) 4-ünün - Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanın Azərbaycana məxsusi simpatiyası var. Rusiya isə ən azından bizə düşmən münasibətdə deyil, Azərbaycanı tərəfdaş ölkə sayır.

*****

Yeri gəlmişkən, KTMT-nin Astana sammitində yeni baş katib məsələsində də bu reallıq özünü göstərib. İrəvanın öz adamını təzədən "Rus NATO-su"na rəhbər gətirmək təklifini Kreml dəstəkləməyib. Deməli, dolayısı ilə Bakının mövqeyi müdafiə olunub. Moskvadan verilən son açıqlama bu qənaəti möhkəmlədir.

Belə ki, KTMT baş katibi səlahiyyətlərini icra edən rusiyalı general Valeri Semerikov xüsusən də Qazaxıstanın və Belarusun mövqeyinə işarə edərək bildirib ki, erməni Yuri Xaçaturovun vaxtından əvvəl istefasından sonra qalan il yarımlıq müddətə yenə Ermənistan təmsilçisinin bu posta təyin edilməsinin effektiv olması əksər üzv-dövlətlərdə sual yaradıb. "Yeni Müsavat" xəbər verir ki, bu barədə təşkilatın saytında yerləşdirilmiş məlumatda deyilir.

Yeni Moskva açıq şəkildə işarə vurur ki, KTMT-nin 6 dekabr növbədənkənar sammitində istənilən halda İrəvan deyən olmayacaq, çünki Ermənistanın məsələyə yanaşması artıq məqbul və konstruktiv hesab edilmir, bununla bağlı konsensus var. Üstəgəl, baş katibin vaxtından əvvəl istefa verməsi halında eyni ölkənin təzədən öz namizədini irəli sürməsi haqda KTMT nizamnaməsində heç nə yoxdur.

Bəzi müşahidəçilərə görə, Moskva İrəvan üçün ən yaxşı variant kimi öz adamı Semerikovun namizədliyi üstündə dayana bilər - ta ki, əlifba sırası üzrə növbə 2020-ci ildə Belarusa - Ermənistanın "mehriban düşməni"nə çatana kimi...

*****

**"Rus NATO-su" ətrafında son baş verənlər İrəvanda əlxüsus Azərbaycanla bağlantıda analiz edilməkdədir. Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, 1 in.am erməni portalında analitik Sərkis Arsruni yazıb:** "Ötən bir neçə gündə KTMT baş katibi seçkisi ətrafında böhran öz kulminasiya nöqtəsinə çatdı, hətta bir-birinə formal müttəfiq sayılan Belarusla Ermənistan arasında əsl diplomatik savaşa çevrildi. Bu böhran KTMT-nin süni qurum olduğunu faş edir. Azərbaycan isə yaşanan böhranda üzv ölkələrin vaxtaşırı yararlandığı yanaşı faktor, eyni zamanda benefisiarlardan biri qismində çıxış edir (benefisiar - baş verənlərdən qazanc götürən üçüncü maraqlı tərəf - "YM")". Reallıq daha çox bundan xəbər verir ki, Ermənistan baş katiblik məsələsində öz namizədi ətrafında konsensus formalaşdıra bilməyib".

**Buna paralel, erməni şərhçi etiraf edir ki, Bakı İrəvan üçün xoşagəlməz olan bu prosesdə öz "benzini" ilə odu "alovlandıra" bilib. Söz düşmüşkən, rusiyalı təhlilçilər də eyni şeyi deyirlər.** "Mən düşünərəm ki, Peterburqda hamını qane edən qərar veriləcək. Ancaq indiki mərhələdə Ermənistan nümayəndəsi baş katib olmayacaq". Bunu rusiyalı tanınmış hərbi ekspert Vladimir Yevseyev söyləyib.

Baş katiblik məsələsi Paşinyan iqtidarı üçün indi daxili dayaqları möhkəmlətmək baxımından da xüsusi önəm kəsb edir. Çünki 6 dekabr sammitindən cəmi 3 gün sonra Ermənistanda erkən parlament seçkiləri keçiriləcək. Siyasi rəqibləri Nikolun KTMT fiaskosundan yüzdə yüz anti-təbliğatda istifadə edəcəklər.

Öz növbəsində rusiyalı tanınmış telejurnalist və şərhçi Vladimir Solovyev hesab edir ki, Paşinyan çox istərdi ki, dekabrın 6-da Sankt-Peterburqdan İrəvana baş katiblik titulu ilə qayıtsın, ona görə ki, dekabrın 9-da parlament seçkiləridir. "Ancaq bu post Belarusa nəsib olsa, o zaman Paşinyanın opponentləri onun bu uğursuzluğundan səsvermə öncəsi istifadə edəcək, daha sonra isə uzun müddət bunu yada salacaqlar. Bu məsələdə güzəşt Paşinyanın zəifliyi kimi görünəcək, "onu sındırdılar" deyəcəklər" - analitik qeyd edib.

**Politoloqa görə, bu səbəbdən N.Paşinyana Peterburqda uğur, yaxud heç olmasa, "heç-heçə" lazımdır:** "Sonuncu ssenari əslində istisna deyil. O halda Valeri Semerikov baş katib əvəzi kimi yaxın ilyarımda bu postda qalacaq".

Semerokov isə Rusiyanın təmsilçisidir. Başqa sözlə, Paşinyan ən yaxşı halda "məğlubiyyətə bərabər heç-heçə"yə ümid edə bilər...

❑ Siyasət şöbəsi,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

**Aralıq dənizinin şərqində, Türkiyə sərhədləri yaxınlığında qaz axtarışı fəaliyyətləri Türkiyə və Cənubi Kipr arasında gərginliyə səbəb olub. Türkiyə Xarici İşlər Nazirliyinin sözçüsü Hami Aksoyun yaydığı rəsmi açıqlamada ABŞ-ın "Exxon Mobil" şirkətinin Kipr adası sahillərində başlatdığı axtarış fəaliyyətlərinin regionda sabitliyə xidmət etmədiyi, problemin həlli baxımdan həssas durumu dəyişə biləcəyi qeyd olunur.**

# Aralıq dənizinin fantastik ehtiyatları uğrunda mübarizə

## 3 trilyon dollarlıq neft və qaz ehtiyatı region ölkələrini üz-üzə gətirir; **Türkiyə XİN:** "Kipr adası ətrafındakı təbii ehtiyatlar yalnız Cənubi Kiprə deyil, hər iki tərəfə məxsusdur"




XİN sözçüsü bildirib ki, Kipr adası ətrafındakı təbii ehtiyatlar yalnız Cənubi Kiprə deyil, hər iki tərəfə məxsusdur. Ankara xarici şirkətlərin Şərqi Aralıq dənizində tək tərəfli hidrokarbon axtarışları fəaliyyətlərini dayandırmağa çağırıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da Kipr ətrafında baş verənlərə münasibət bildirib. Kipr ətrafındakı fəaliyyətləri təbii ehtiyatların oğurlanması adlandıran Ərdoğan bu fəaliyyətləri heç bir halda qəbul etməyəcəklərini bildirib.

**Sitat:** "Ölkəmizin və Şimali Kipr Türk Respublikasının (KKTC) kənarda qoyulmaqla haqlarımızın qəsb edilməsinə istiqamətli cəhdləri qətiyyən qəbul etməyəcəyik. Bizim kimsənin torpağında gözümüz yoxdur. Türkiyəni nəzərə almadan Şərqi Aralıq dənizində və ya Egey dənizində fəaliyyət göstərəcəklərinə inananlar böyük bir səhv etdiklərini anlamağa başladılar. Suriyadakı terrorçuların cavabını verdiyimiz kimi, meydanı dənizdəki quldurlara da verməyəcəyik".

Xarici işlər naziri Mövlud Çavuşoğlu isə lazımi addımların atıldığını bildirib. Ancaq Cənubi Kiprin enerji naziri Yorqos Lakkotiripis kəşfiyyat-axtarış fəaliyyətlərinin planlandığı şəkildə davam etdiyini bildirib. Cənubi Kipr mediası isə "Stena IceMax" gəmisinin geoloji-kəşfiyyat fəaliyyətlərini davam etdirdiyini və dekabrın ortalarınadək axtarış fəaliyyətlərinin ilk etapının başa çatacağını yazıb.

Xatırladaq ki, yunan Kipri enerji naziri Yorgos Lakkotripis noyabrın 10-da Amerikanın "Exxon Mobil" şirkəti ilə "Qatar Petroleum" və Cənubi Kipr hökumətinin birgə "Eksklüziv İqtisadi Zonada" ərazisində yerləşən 10-cu bölgədə təbii qaz kəşfiyyat işlərini başlatdığını elan edib. Bundan öncə isə ABŞ dövlət katibinin enerji məsələləri üzrə müavini naziri Frensis Fannon Kiprə səfər edib. O da məlum olub ki, hazırda qeyd olunan bölgədə qaz kəşfiyyatını Britaniyaya məxsus "Stena Icemax" gəmisi həyata keçirir. Onun ətrafında isə bri sıra ölkələrin, o cümlədən ABŞ-ın hərbi gəmisi keşik çəkir. Maraqlıdır ki, Fannon Kiprdən sonra Şərqi Aralıq dənizinin sahilində yerləşən və perspektiv qaz ölkəsi hesab olunan İsrail və Misirə də səfər edib.

Qeyd edək ki, hazırda Türkiyə tərəfi də Aralıq dənizində kəşfiyyat-axtarış tədbirləri həyata keçirir. Türkiyəyə məxsus iki geoloji-kəşfiyyat gəmisindən biri Qara dənizdə, o biri isə Aralıq dənizində fəaliyyət göstərir. Lakin görünən

Bu ilin yayında açıqlanan rəqəmlərə əsasən Şərqi Aralıq dənizi hövzəsində 3 trilyon dollar dəyərində hesablanan qaz yataqları var. Bu isə Türkiyənin 572 illik qaz ehtiyacı deməkdir.

Ancaq bu qədər böyük sərvətin ciddi müştəriləri var. Söhbət Yunanıstan, Cənubi Kipr, İsrail, Livan, Liviya və Misirdən gedir. Məsələ ondadır ki, indi Türkiyə ilə Misir, İsrail və Yunanıstan arasında problemlərin olduğu bir zamanda adıçəkilən ölkələr bölgədə birgə fəaliyyət göstərmək və Türkiyəni yalnız qoymağa çalışırlar. Hətta bu ilin yayında Türkiyə hərbi gəmiləri Kipr sahillərində kəşfiyyat fəaliyyətləri göstərən İtaliyanın Eni şirkətinə məxsus gəminin fəaliyyətini dayandırmağa məcbur edib.

Məsələ ondadır ki, Aralıq dənizinin şərqində yerləşən ehtimal olunan qaz yatağı bölgəsi beynəlxalq hüquq və BMT qərarlarına əsasən neytral ərazilərdə yerləşir. Yunanıstan isə bölgədən xeyli uzaqda yerləşir. Ancaq yunanlar bu məsələdə daha odur ki, ABŞ hökumətinin yunan Kiprinə dəstək verməsi Ankara üçün çətinlik yaradıb. Çünki amerikalıların bu sahədə ciddi təcrübələri var, üstəlik, regionda böyük ehtiyatların olması xarici oyunçuları cəlb edir. cəlb hərəkət edərək Türkiyənin İsrail və Misirlə münasibətlərində olan soyuqluqdan istifadə edərək bu ölkələrlə Yunan Kipri arasında anlaşma imzalamağa çalışır. Bi rmənada artıq ilkin razılaşmalar mövcuddur.

Aralıq dənizinin şərq sahillərində böyük enerji ehtiyatları mövcuddur. ABŞ Geoloji Araşdırmalar Mərkəzinin ehtimallarına görə, Kipr, Livan, Suriya və İsrail arasında qalan dəniz bölgəsində 3,45 trilyon kubmetr qaz və 1,7 milyard barel neft var. Nil Deltası hövzəsində isə 1,8 milyard barel neft, 6,3 trilyon kubmetr təbii qaz və eləcə də 6 milyard barel maye qaz yatağı olduğu ehtimal olunur. Bundan başqa, Kipr adası ətrafında olduğu ehtimal olunan 8 milyard barel neft yatağından başqa Krit adasının cənub və cənub-şərqində Heredot adlı yataqda 3,5 trilyon kubmetr qaz olduğu ehtimal edilir.

Göründüyü kimi, fantastik gəlir və strateji olaraq Avropanın tələbatını ödəyəcək qaz ehtiyatından söhbət gedir. Bu isə təkcə yazıda adı çəkilən deyil, adları çəkilməyən ölkələrin böyük maraq və diqqətindədir. Bu isə o deməkdir ki, yaxın dövrdə bölgədə gərginlik və mübarizə davam edəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Bayramları bayram edən kimdir?..



**Hüseynbala SƏLİMOV**

**Tarixi təcrübə də, ən müxtəlif ölkələrin nümunələri də göstərir ki, bayramlarla bağlı təşəbbüslər "aşağılar"dan - cəmiyyətdən gələndə onlar həqiqətən də daha yaşarlı olurlar.**

Əslində isə bu, bütün siyasi və ictimai simvolikalara aiddir - güclü tarixi özül olmayanda nəinki ictimai-siyasi çağırışların, hətta siyasi təsisatların belə oturuşması problemli olur.

Odur, yeni ictimai-siyasi çağırışlar edilində, bu və ya digər ideya ilk olaraq ictimai dövriyyəyə buraxılanda, o cümlədən də hər hansı təsisat qurulanda onu zamanın sınağından çıxmış və artıq tarixiləşmiş ictimai-siyasi dəyərlərə proyeksiya edirlər ki, daha dayanıqlı və ya yaşarlı olsun.

Əlbəttə ki, hər bir millət, hər bir cəmiyyət öz dövlətçilik tarixində müxtəlif siyasi sistemlər yaşayır, müxtəlif hakimiyyətlər görür - axı ən azı müasir politoloji təsəvvürlərə görə siyasi dəyişikliklərin finalı sayılan demokratiya heç də birdən-birə bərqərar olmur.

Daha yetkin, daha müdrik və savadlı cəmiyyətlər onların heç birini öz tarixindən silib atmır, onların hər birinə tarixdə anılmaq imkanı verir və bu tamam normal bir haldır - əks təqdirdə yüz illərlə keçmişi olan ölkələrin belə tarixi yalnız 20-ci əsri əhatə edərdi, çünki demokratiya bir quruluş kimi əksər ölkələrdə məhz bu əsrdən başlayaraq bərqərar olmağa başlayıb, amma buna qədər nələr və nələr olub...

Təbii ki, hər bir hakimiyyət də tarix boyu özünün bu və digər atributlarına və simvolikalarına ümummilli məzmun verərək onları bu və ya digər dərəcədə əbədiləşdirməyə çalışıb - di gəl, bunlardan yalnız və yalnız cəmiyyətlərin təqdir etdikləri və saygı göstərdikləri yaşarlı olub...

Bəs bunları niyə Sizə ərz edirik? Bir neçə ildir ki, diqqətimizi bir detal cəlb edir. Milli Dirçəliş günü (17 noyabr) ümummilli bayramlar sırasından çıxarılıb "əlamətdar gün" kimi anılsa da adi müşahidələr belə göstərir ki, insanların onu milli bayram kimi qeyd etmək istəyi güclüdür - görürsən ki, cəmiyyət onu digər rəsmi bayramlardan daha çox anır.

Səbəblərini bir tərəfə qoyuruq, hərçənd ki, onları da qeyd etmək qətiyyən faydasız olmazdı. Nədədir bunun sirri?

Ötən həftə elə hey Fransanın qarasınca deyindik və Qarabağdakı separatist rejimin başçısının Parisə getməsinə görə haqlı olaraq fransız hökumətinə xeyli irad bildirdik və düz də etdik.

Amma bir detalı heç yada salmadıq. İllər öncə, səksəninci illərin sonlarında Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi, akademik Abel Aqanbeqyan məhz Paris şəhərində Dağlıq Qarabağın Ermənistana verilməsinin zəruriliyi haqqında açıqlama vermişdi...

Həmin hadisə 1987-ci ilin axırlarında olmuşdu. Azacıq sonra, 1988-ci ildə artıq Bakını böyük mitinqlər və kütləvi etirazlar dalğası bürüdü, insanlar Dağlıq Qarabağın müdafiəsinə qalxdı və az keçəndən sonra bu etirazlar milli-azadlıq mübarizəsinə transformasiya olundu.

Bəli, 17 noyabr -Dirçəliş günü belə başlamışdı... O hadisələrə qədər insanlar həmin meydandan yalnız sovet hakimiyyətinin paradları zamanı təntənə ilə keçərdi. Bu dəfə isə belə olmamışdı - insanlar öz təşəbbüsləri toplaşmışdı və təntənə artıq tamamilə başqa təntənə idi - tribunalardakılar da sovet rəhbərləri deyildi, tamamilə fərqli insanlar idi.

Əlbəttə ki, irad bildirilsi, hətta komedik məqamlar da var idi - tribunadakıların bir qismi yüz minlərlə insana əsl gimnastika dərsi keçir, "Otur! Qalx!" əmri verirdilər. Sonrakı illərdə bu məqamlar çox dilə gətirildi və müzakirə olundu, bununla belə həmin hadisələr dəyərdən düşmədi, çünki ümumi halda götürüləndə, bir daha deyirik ki, özünün bütün ironik və hətta komedik cəhətlərinə baxmayaraq, bu, həqiqətən də Dirçəliş idi - əvvəllər belə bir şey olmamışdı.

Ən başlıcası da bundan bir qədər sonra baş verənlər həmin hadisələrin, həmin günlərin məntiqi bir davamı idi...

Elə indiki ictimai münasibət də bir daha göstərir ki, cəmiyyət o hadisələri öz tarixi baxımından həqiqətən çox önəmli hesab edir. Amma biz nə edirik?

O günləri adi, sadəcə, əlamətdar gün kimi qeyd edir, sonra baş vermiş bəzi olayları isə böyük bayram kimi anırıq. Ruslar buna "arabanı atdan önə keçirmək" deyirlər. Elə bu səbəbdən də bir daha lap əvvəldəki suala dönmək istərdik: bayramları da həqiqi bayram səviyyəsinə qaldıran məhz millətlər - cəmiyyətlər olur. Çünki hakimiyyətlər əbədi olmur, onlar daim biri-birini əvəz edir, cəmiyyətlərsə tamam başqadı- əbədiliyin, tarixin daşıyıcıları, eləcə də qoruyucuları onlardır...

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018



# Əsr dəyişdi, ritorika dəyişmədi

**Samir SARI**

**Noyabr ayının 17-də keçirilən bir şadlıq mərasimində köhnə hərəkatçı cəbhəçilərdən biri yaxınlaşdı, bir az sitəm etdikdən sonra tənəli-tənəli dedi ki, yazın də, niyə yazmırsınız, bayaq polis Əli Kərimlini və yanındakı 40-50 adamı tutub bölməyə apardı.**

Düzü, yolda olmuşdum, sayta baxmamışdım, bilmirdim, bu barədə saytımızda yazı gedib, ya yox. Hərəkatçı qardaş əl çəkmədi, ittiham edə-edə dedi ki, amma "dux"unuz çatmaz yazmağa, çünki zalım iqtidar... gerçək müxalifət... xalq... əqidə... demokratiya yolu və sair və ilaxır.

Az sonra məlum oldu ki, qardaş da tutulanlar içində olub, amma onu nəyə görəsə tez buraxıblar və o, hazırda bunun xəcalətini çəkir, bir az da əndişəlidir, qorxur ki, daha əqidəli hərəkatçılar onu bu sayaq "tezburaxılma"ya görə ittiham edə, üstünə reneqat adı qoya bilərlər.

Çox sonra (kompüterə baxanda) aydınlaşdı ki, bizim sayt, hər halda, dirçəliş günü baş verən hadisə - yürüşə cəhd və həbslər - barədə informasiya veribmiş. Həmin gün qəzet çıxmırdı deyə, müvafiq informasiyanın qəzetdə verilməsi texniki baxımdan mümkün olmayıb.

Dünən isə tutulanların hamısını buraxdılar və bir xeylisinə pul cəriməsi kəsdilər. Xoşbəxtlikdən, bu dəfə ABŞ-ın "narahat olmasına", Avropa Şurasının "həbs olunanların azad edilməsi" üçün çağırışlarına, beynəlxalq insan haqları qurumlarının tələblərinə ehtiyac olmadı.

Hərçənd o cərimələr də az deyil. Hətta sərt cəzadır. Çünki cərimələnənlərin çoxu işləmir, maaş almırlar.

İndi başqa söhbətlər var. Fəallar sosial şəbəkələrdə yazırlar: "İqtidar AXCP-dən qorxdu"; "Əli Kərimli qalib gəldi" və sair və ilaxır.

Vallahi, biz belə replikaların səsləndiyi filmlərə çox baxmışıq. Bu ötən əsrdən qalan ritorika hələ də dəyişməyib.

Uzun illər öncəydi (1998-ci il 12 sentyabr), xeyli müxalifətçi mitinqdə tutulmuşdu. Ertəsi gün qəzetlərdə (o dövrdə müxalifət qəzetləri çox idi) böyük bir pafos dalğası kükrədi: "Bakıda yer-yerindən oynadı"; "Möhtəşəm etiraz aksiyası"; "Hakimiyyət panikada" və sair və ilaxır. Orda-burda, çayxanalarda, partiya dəhlizlərində "çamadanlarını yığıb qaçırlar" şayiələri dolaşırdı.

Necə olmuşdusa, kimsə Siyavuş Novruzovu və ya başqa bir deputatı aeroportda, Strasburqa, Brüsselə uçan yerdə görmüşdü, elə bilmişdi, qaçır.

Ən pisi tutulanlara oldu, o qədər pafoslu-pafoslu yazdıq, danışdıq ki, hökumət mitinqdə tutulanların bir dəstəsini buraxmadı, yerdə qalanların gözü qorxsun deyə içəridə saxladı, hərəsini iki-üç ay yatırtdılar, cinayət işi açdılar. Müdafiə komitələri yaradıldı, ATƏT, AŞ, "Helsinki votç", "Amnesty international"-filan işə qarışandan sonra bəyləri həbsdən güc-bəla azad elədilər.

O zaman ağıllı adamlardan biri deyirdi ki, vallah, bu pafos sizin evinizi yıxacaq, bir şey olan kimi yazırsınız, "qaçırlar", biri tutulanda qəhrəman edirsiniz, buraxılanda "qorxdular, buraxdılar" deyirsiniz.

Əqidəli müxalifətçilər deyirdilər, bəs nə edək, bu siyasi mübarizədir, "azadlıq verilmir, alınır", "zülmün topu-tüfəngi varsa, haqqın da bükülməz qolu vardır", "ABŞ bu işə belə qoymaz", "beynəlxalq ictimaiyyət təzyiqləri artıracaq" və sair və ilaxır.

Oxumuş-gəzmiş adamlar deyirdilər, realist olun, ABŞ-a, Avropaya çox da güvənməyin, onların kəndiri ilə quyuya enmək olmaz, işlərinə yarayanda ipinizi kəsərlər, qalarsınız quyuda.

Deyirdik, yox, tərəqqipərvər bəşəriyyət yanımızdadır, üstəlik, Vaşinqton demokratiyanın bütün dünyaya yayılmasının vacibliyinə dair bəyanat yayıb.

Dünən məlum oldu ki, həmin Vaşinqton jurnalist Camal Qaşıqçının qətl sifarişinin Səudiyyə şahzadəsi bin Salman tərəfindən verilməsinin sübut olunmasına baxmayaraq, Tağı müəllimin sözü olmasın, burcudur, şahzadəyə nəinki irad tutmur, hələ onu müdafiə etməyə çalışır.

Dünya bu qədər pisləşib, durum bu qədər ağırlaşıb, demokratiya, insan haqları söhbəti edən qalmayıb. "Beynəlxalq ictimaiyyət" Tramp kimilərə məəttəl-məəttəl baxır. İndi nəinki ayrıca götürülmüş bir ölkənin dirçəliş günü qeyd edilmir, hətta bütün dünya çöküş illərinə girib.

Ortada olan fakt odur ki, 20 il öncə "bunlar çamadanlarını qablayıblar, xaricə qaçırlar" deyənlərin bir çoxu çoxdan xaricdədir, Siyavuş Novruzov isə parlamentdə büdcə bölür.

# Dövlət büdcəsini "xortumlayan" məmurlar: onlar niyə həbs edilmir?

## Hüquqşünas: "Həmin məmurlar həbs edilərsə, digərləri üçün dərs olar"

**Ölkədə kiçik məmurlar rüşvət və korrupsiya faktına görə həbs edilsələr də, büdcəni "xortumlayan" sabiq məmurların əksəriyyəti cinayət məsuliyyətinə cəlb edilməyib, azadlıqdadırlar.**

keçmiş kənd təsərrüfatı naziri Heydər Əsədovun barəsində çoxsaylı məlumatlar yayılıb. Bu məlumatlarda adları qeyd edilən şəxslərin çoxsaylı qanunsuz əməlləri əks olunub. Lakin hər üç nazir hələ də azadlıqdadır. Bu siyahını bir sas almaq məqsədilə bu məlumatları sata, yaxud da başqa cür istifadə edə bilərdilər. Görünür ki, bu səbəbdən də onlar barədə qeyd edilən maddə üzrə həbs seçilib. Digər məmurlar, eləcə də sonuncu işdən çıxarılan Abel olan mənimsəmələrə isə hüquqi cəhətdən qiymət verilmir. İctimaiyyətdə belə fikirlər dolaşır ki, həmin məmurların əmlaklarını qeyri-rəsmi şəkildə əllərindən alırlar. Ancaq bu, gələcək cinayətlərin qarşısını almaq üçün kifayət deyil.

Belə ki, son olaraq Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmovun qaçaqmalçılıq yolu ilə ölkədən İspaniyaya 2 ton şərab daşıması məlumatı yayıldı. Abel Məhərrəmov vəzifəsindən azad edilsə də, hələ ki onun həbs edilməsi və ya cinayət məsuliyyətinə cəlbi ilə bağlı məlumatlar yoxdur.

Eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasının sabiq rəhbəri Rüfət Aslanlı barədə də ötən ay xeyli məlumatlar yayıldı. Onun harın həyat tərzi, bahalı avtomobilləri, müxtəlif saatları və sair barədə ölkə mətbuatında çoxsaylı materiallar dərc olundu.

Həmin materiallardan aydın oldu ki, sabiq Palata rəhbəri çox dəbdəbəli həyat tərzi keçirib, bahalı aksesuarlara, əyləncə və gəzintilərə külli miqdarda pullar xərcləyib. Məsələn, haqqın.az saytının yaydığı məlumatdan R. Aslanlının Londonda bir hoteldə qalmağa minlərlə funt-sterlinq xərclədiyi ortaya çıxır. Belə ki, 2016-cı ilin avqust-oktyabr aylarında Palata rəhbəri olaraq o, Londonun "Windzor Suite" hotelində qalmağa bir dəfə 3600, ikinci dəfə isə 4300 funt-sterlinq xərcləyib. Ödənişləri isə özünün "Lloyds Bank PLC"dəki hesabından icra edib. Bundan əlavə, R.Aslanlı Beynəlxalq Bankın sabiq direktoru Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın bazarlıq etdiyi "Harrods" adlı ticarət mərkəzindən böyük məbləğdə alver edib. Belə ki, 2016-cı ilin 2 sentyabr tarixində onun kart hesabından həmin ticarət mərkəzi üçün 31 min 435,15 dollar çıxılıb. Elə həmin gün həmin ticarət mərkəzində R.Aslanlı daha 40 min 561 dollar xərcləyib.

Lakin Rüfət Aslanlı hələ də həbs edilməyib. Həmçinin sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, sabiq nəqliyyat naziri Ziya Məmmədov, onun qudası,



Əsabəli Mustafayev

qədər də uzatmaq olar...

Eyni zamanda onu da qeyd edək ki, son illərdə dövlətin pulunu oğurladığı üçün həbs edilən yüksək çinli məmurlar da olub. Məsələn, "MTN işi", "Rabitə işi" çərçivəsində xeyli sayda məmurlar həbs edildilər. Lakin bu işlərdə də həm ləğv edilmiş MTN naziri Eldar Mahmudov, həm də rabitə naziri Əli Abbasov məsuliyyətdən kənarda qaldılar.

**Hüquqşünas Əsabəli Mustafayev "Yeni Müsavat"a bildirib ki, sabiq məmurların fəaliyyətləri qanunaziddir və cinayət tərkibi olan fəaliyyətlərdir:** "Rüşvət artıq özü cinayət əməlidir. Bunun azı-çoxu yoxdur və mütləq həmin şəxs cəzaya məruz qalmalı, həbs edilməlidir. Rüşvət məsələsinə bütün dünyada pis baxılır və bu, ən ağır cinayət sayılır. Hətta çox yerlərdə rüşvət alan məmura girov, ev dustaqlığı da təqdim olunmur. Birbaşa həbs edilirlər. Mətbuatdan oxuduq ki, bizdə də bir çox məmurlar yeyintilərə yol veriblər. Bu yeyintilər isə külli miqdarda vəsaitdir. Lakin onların demək olar ki, heç biri həbs edilməyiblər. Yalnız "MTN işi"ndə bəzi generalları həbs edildilər. Buna da səbəb odur ki, həmin adamlar dövlət sirrinin daşıyıcıları idi. Bu məmurları işdən azad edib, azadlığa buraxmaq düzgün olmazdı. Onlar dövlətdən qi-

Məhərrəmov, rüşvətxorluq, qaçaqmalçılıq kimi qeyri-qanuni əməllərə yol veriblər. Bunların hamısı ağırlaşdırıcı hallardır. İctimaiyyəti də bu təəccübləndirir ki, hansısa kiçik işçi 15-20 manat aldığına görə işdən çıxarılır, külli miqdarda

Hər bir məmur görməlidir ki, əgər o, bu kimi oxşar əməli törədərsə, ona qarşı ciddi, kəskin hüquqi tədbirlər görüləcək. Məmurlar bunu görmədikləri üçün öz əməllərindən geri qalmırlar. Çünki görülən tədbirlərin qabaqlayıcı, tərbiyəedici tərəfi yoxdur. Məmur düşünür ki, uzaqbaşı əlimdə olan mülkün bir hissəsini alacaqlar. Bu səbəbdən də məmurların əksəriyyətinin öz adlarında heç nə yoxdur. Müsadirə etmək üçün nəticədə heç nə tapa bilmirlər. Ən pisi odur ki, həbs yoxdur. Cinayət var, cəza yoxdursa, ədalət prinsipi kəskin surətdə pozulur. Nəticədə bu cür qeyri-qanuni əməllər davam edir və belə getsə, edəcək də".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

AZƏRBAYCAN RESPUBLİKASI
MTRŞ
MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASI

# MTRŞ-dən televiziyalara xəbərdarlıq

**Milli Televiziya və Radio Şurası (MTRŞ) verilişlərin keyfiyyəti ilə bağlı televiziya kanallarına xəbərdarlıq edib.**

Bu barədə "Trend"ə MTRŞ sədri Nuşirəvan Məhərrəmli deyib.

N.Məhərrəmli bildirib ki, bu məsələ ilə bağlı televiziya kanallarının rəhbərləri ilə görüş keçirilib:

"Televiziya və radio kanallarında vəziyyətlə bağlı televiziya kanallarının rəhbərləri ilə ciddi görüşümüz oldu. Televiziya və radio kanallarındakı verilişlərin keyfiyyətinin çox aşağı olması ciddi şəkildə onların diqqətinə çatdırıldı. Onlara bu məsələ ilə bağlı tədbirlər görülməsi tövsiyə olundu. Bildirildi ki, ictimaiyyət bu verilişlərdən çox narazıdır, yəni qıcıq yaradan verilişlər, bəzi aparıcılar var ki, onlarla bağlı tədbirlər görülməsi tövsiyə olunur".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**İşğal altındakı Azərbaycan ərazilərində yaradılmış separatçı-terrorçu rejimin başçısı Bako Saakyanın Avropanın aparıcı dövlətlərindən biri olan Fransanın ardınca dünyanın supergücünə-ABŞ-a getməsi haqlı narazılıqlara səbəb olub.**

# ABŞ və Fransa "Rus NATO"sunda təklənmiş işğalçıya qucaq açır

## **Arzu Nağıyev:** "Həmsədr ölkələrin separatçıya viza verməsi ikili standartların ən bariz nümunəsidir"





## **Elxan Şahinoğlu:** "Ermənistandan başqa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan dövlətlərin hamısı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır"

Doğrudur, separatçıların başçısının bu ölkələrə səfərləri bundan əvvəl də olub. Lakin aprel döyüşləri göstərdi ki, Dağlıq Qarabağ probleminin həlli missiyasını öz üzərinə götürən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin ikili standartlardan çıxış etməsi hər an daha dəhşətli toqquşmalara və böyük faciələrə gətirib çıxara bilər. Bu mənada dünyanın aparıcı dövlətləri olan həmsədr ölkələrin daha ciddi yanaşması tələb olunur. Ancaq belə görünür ki, Paris və Vaşinqton "nə hərb, nə sülh" vəziyyətinin uzanmasını daha məqbul hesab etməklə yanaşı, həm də separatçıların nazı ilə oynamağa davam etmək niyyətindədir. Əks təqdirdə, insanlığa qarşı bəşəri cinayətlər törətmiş erməni separatçılarına qapılarını taybatay açmaz, həmçinin onların yardım toplaması üçün şərait yaratmazdılar.

Düzdür, Azərbaycan Xarici İşlər Nazirliyi Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyanın Fransaya və ABŞ-a səfərinə kəskin etirazını bildirib. Amma Paris və Vaşinqtonun davranışlarından belə görünür ki, onlar ənənəvi şəkildə "biz Dağlıq Qarabağ adlı dövlət tanımırıq" mövqeyindən uzağa getməyəcəklər. Bu mövqe isə heç nəyi dəyişmir.

"Yeni Müsavat" erməni mətbuatına istinadən xəbər verir ki, B.Saakyan ABŞ-ın Los-Anceles şəhərində Erməni Yardım İttifaqının üzvləri ilə görüşüb. Saakyanın ABŞ rəsmiləri ilə görüşü olmasa belə, onun terrora qarşı mübarizəni özünün əsas hədəfi elan etmiş bu ölkəyə girişi belə, qəbulolunmazdır! Çünki söhbət Azərbaycanın ərazi bütövlüyünü pozan, insanlarına qarşı cinayətlər törədən, qanunsuz elan olunmuş qurumda özünü "prezident" elan edərək beynəlxalq qanunları tapdalayan şəxsdən gedir. Bu mənada ona viza verilməsinin özü Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir.

Rəsmi Bakı da bəyan edib ki, ABŞ-ın Minsk Qrupunun üzvü kimi separatçı Dağlıq Qarabağ rejimi nümayəndələrinə viza verməsi ciddi suallar doğurur. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) özünü separatçı rejimin "rəhbəri" kimi təqdim edən Bako Saakyanın ABŞ-a səfəri ilə bağlı bəyanatında deyilir. Bildirilir ki, kütləvi informasiya vasitələrində Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" kimi özünü təqdim edən Bako Saakyanın Amerika Birləşmiş Ştatlarına səyahəti barədə məlumat verilir. "Qondarma rejimin nümayəndəsinin ABŞ ərazisinə daxil olması və qondarma qurumun ABŞ ərazisində təşviqinə icazə verilməsi bu ölkənin ATƏT-in Minsk Qrupunun həmsədri kimi üzərinə götürdüyü öhdəlikləri, eləcə də ABŞ-ın separatçı qondarma rejimin tanınmaması ilə bağlı dəfələrlə bəyan etdiyi rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir. Bu addım, həmçinin münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirir", - deyə bəyanatda qeyd olunur.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, həmsədr ölkələrin separatçıya viza verməsi ikili standartların ən bariz nümunəsidir:** "Yəni bu gün hətta işğal olunan ərazilərdə qanunsuz fəaliyyət göstərən firma və şirkətlərin də çoxu məhz bu dövlətlərə aiddir. Bu, təəssüf doğurur. İkinci məqam odur ki, bu dövlətlər heç olmasa Saakyanın səfərlərinin məqsədini də açıqlamırlar. Əgər bu səfərlərdə münaqişənin həlli üçün hər hansı təsir mexanizmindən və ya digər məsələlərdən söhbət gedirsə, müəyyən aydınlıq gətirmək olardı. Bununla yanaşı, Azərbaycan Xarici işlər Nazirliyinə bu səfərin məram və məqsədi ilə bağlı məlumatlar verilməsi də labüd məsələdir. Deməli, ATƏT-in Minsk Qrupu həmişə olduğu kimi öz işini ancaq deklorativ bəyanatlar verməkdə görür".

**Bir məqam da diqqət çəkir. Belə ki, Ermənistanda bəzi dairələr Paşinyanın parlament seçkilərindən sonra Qarabağı azad edəcəyini, hətta pul qarşılığında torpaqları boşaldacağını iddia edir. Politoloq Arzu Nağıyev qeyd etdi ki, Ermənistanda parlament seçkilərinin keçiriləcəyi vaxt yaxınlaşdıqca müxtəlif partiyalar tərəfindən bəyanatlar səslənməkdədir:** "Məlum məsələdir ki, həmişə olduğu kimi, Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları bir siyasi xətt kimi istifadə edilməkdədir. Məhz Paşinyanın Dağlıq Qarabağa son səfəri, qondarma qurumun hərbi xunta nümayəndələri ilə görüşü də bunu deməyə əsas verir. Paşinyan hakimiyyətə gələn kimi ilk olaraq Dağlıq Qarabağın separatçı rəhbərinin üçüncü tərəf kimi bu danışıqlara qatılmasını istədi. Daha sonra BMT Baş Assambleyasının 73-cü sessiyasında başqa bəyanat verdi, Düşənbə sammitində isə bu məsələdən imtina etdi. Bu o deməkdir ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə oyun oynayır, siyasi gedişlər edir. Bu bir daha onu deməyə əsas verir ki, Paşinyan hakimiyyətinin iqtisadi, siyasi, hərbi doktrinası yoxdur. Heç məxməri inqilab da edə bilmədi, lakin prosesləri "məxməri inqilab" adlandırmağa çalışdı. İndi də artıq mitinqlər eyforiyasından ayrılmaq vaxtı gəlib".

**A.Nağıyev bildirdi ki, Paşinyan Rusiya ilə onlara sərf edən tərzdə, Qərblə isə tamam ayrı bir formatda danışır:** "Yəni o, bu gün dilemma qarşısında qalıb və əsas sual da maddi vəsaiti haradan necə alacağıdır. Ona 100 milyon krediti Qərb vermir, Rusiya verir, deməli, Moskva verdiyi pulun müqabilində öz diktəsini edəcək. Belə olduğu tərzdə isə digər siyasi qüvvələr onu maddi dəstəyin ancaq Dağlıq Qarabağ kartı üzərindən əldə edəcəyini düşünürlər. 2016-cı ilin aprelində hektarlarla ərazi Azərbaycan tərəfindən geri qaytarıldı, Naxçıvanda bu proseslər davam etdi və düşünürəm ki, bu, davam edəcək. Bunu nə qədər Serj Sərkisyanın idarəçiliyi dövrə yazsalar da fakt faktlığında qalır. Bu gün də Ermənistan xarici siyasətində elə bir qlobal dəyişikliklər yoxdur. Deməli, erməniləri qorxudan məqam da odur ki, istənilən istiqamətdə, yəni diplomatik, siyasi və hərbi baxımdan onlar uduzurlar və artıq həm ABŞ, həm Rusiya münaqişənin həllində müəyyən irəliləyişə nail olmağı tələb edir. Erməniləri qorxudan məqamlardan biri də işğal olunana əraziləri əldə saxlamaq üçün vəsaitin olmamasıdır və bunun da gələcəyi yoxdur. Ona görə də narahatlıq var və düşünürəm ki, bu da əsassız deyil".

Bu arada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında öz yerini itirən Ermənistanın aqoniya vəziyyətində olması da nəzərdən yayınmır. Ermənistanın baş nazir əvəzi Nikol Paşinyanın hətta Qazaxıstan və Belarus prezidentlərindən "izahat" istəməyə cəsarət etməsi İrəvanın anlaqlı durumda olmadığını deməyə əsas verir. Düzdür, Minskdən Paşinyana kifayət qədər tutarlı cavab verildi. Ancaq bu kimi cavabların İrəvanı işğalçı siyasətdən də çəkindirəcəyini demək olmaz. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu dedi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Astana sammitində baş katibin dəyişdirilməsinə qərar verilməsi Ermənistanın narazılığına səbəb olub:** "Çünki təşkilatın baş katibi hələ 1 il Ermənistan nümayəndəsi olmalı idi. Ancaq Ermənistanın 5 hazırkı baş naziri Nikol Paşinyan baş katib Yuri Xaçaturovun əvəzinə başqa generalı təyin etmək istədi. Bu qərar isə təşkilata üzv olan digər dövlətlərin xoşuna gəlmədi. Təşkilatın yeni baş katibi Belarusdan olacaq. Belarus prezidenti Aleksandr Lukaşenkonun Minskdə Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilovla görüşü də İrəvanın narazılığını daha bir az artırıb. Çünki həmin görüşdə iki ölkə arasındakı əlaqələrdən başqa Lukaşenko azərbaycanlı diplomata Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı vəziyyətdən də danışdı, Ermənistan nümayəndəsinin təşkilata baş katib gətirilməsinin artıq mümkün olmadığını bildirdi. Lukaşenkonun bu sözləri Ermənistan hakimiyyətinin xoşuna gəlmədi. Bundan sonra Ermənistan rəsmiləri Lukaşenkonu sərt tənqid etməyə başladılar. Doğrusu, buna qədər İrəvanla Minsk arasında gərginlik açıq müstəviyə keçməmişdi. Ancaq Minsk də İrəvanın cavabını yaxşı verdi". **Politoloq qeyd etdi ki, Azərbaycan prezident İlham Əliyev bundan bir gün sonra - noyabrın 14-də Belarusun Azərbaycandakı səfiri ilə görüşdü:** "İlham Əliyev bu görüşdə Ermənistanın mövqeyini tənqid etdi və Belarus prezidentinin mövqeyini dəstəklədiyini bildirdi. Rəsmi Bakı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı vəziyyəti diqqətlə izləyir. Bunun əsas səbəblərini İlham Əliyev Belarus səfirinə də izah etdi. Birincisi, təşkilatda baş katibin işğalçı Ermənistanın nümayəndəsinin olması Azərbaycanı narahat edir. İkincisi, Ermənistan təşkilatdan öz məqsədləri üçün istifadə etməyə çalışır. Buna baxmayaraq, Ermənistandan başqa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan dövlətlərin hamısı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır. Ermənistanın səyləri nəticə vermir. İlham Əliyev Belarus səfiri ilə görüşməklə prezident Lukaşenkoya dəstək ifadə etdi. Azərbaycan prezidentinin Belarusa səfəri bu dəstəyin daha bir ifadəsidir. Lukaşenkonun son açıqlamasından sonra rəsmi Bakı Minsklə hərbi əməkdaşlığı daha da genişləndirəcək. Bu, hər iki dövlətə faydalıdır. Azərbaycan yeni hərbi texnika alacaq, Belarus isə satdığı hərbi texnikaya görə maliyyə qazanacaq. Buna baxmayaraq, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etməyəcək. Çünki Ermənistan Rusiyadan tamamən asılı vəziyyətdədir. İrəvan elə həmişə Qazaxıstanın və Belarusun mövqeyindən şikayətçi olacaq".

**Ermənilər isə narahatdır. "Belarusun bəyanatları qəbuledilməzdir, amma Ermənistan tərəfindən də əvvəldən səhvlər olub". Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Ermənistanın Respublikaçılar Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Vaqram Baqdasaryan deyib.** "Yuri Xaçaturov bütün üzvlər tərəfindən baş katib təyin edilib. Məsələ onun həbsinə çatanda bütün tərəfdaş ölkələrin rəhbərləri məlumatlandırılmalı idi. Hər bir halda situasiya Ermənistanın xeyrinə deyil", - deyə o bildirib. O, Belarusun bundan öncə də Ermənistana qarşı neqativ münasibətinin olduğunu, amma bunun ictimai şəkildə elan edilmədiyini söyləyib. Baqdasaryan həmçinin 6 dekabrda baş tutacaq KTMT iclasının "dost xarakterli" olmayacağını vurğulayıb. Daşnaksütyun fraksiyasının rəhbəri Armen Rüstəmyan isə KTMT ilə bağlı situasiyanın təəssüf doğurduğunu bildirib. Paşinyan hökumətiylə rəqib olmağına rəğmən, daşnakların nümayəndəsi Belarus və Qazaxıstanın bəyanatlarını doğru qəbul etməyib. Rüstəmyan KTMT-də yaranan problemlərdən ilk növbədə Azərbaycanın istifadə edəcəyini bildirib.

Rəsmi Bakının uğurlu siyasəti öz bəhrəsini verib. Ermənistan üzv olduğu qurumda da təklənmiş duruma düşüb. Rusiya isə bütün bu vəziyyəti sakitcə müşahidə edir. Ermənistan "tövbə" etməsə, "ağa"sı çətin ki, onun günahından keçsin. Təəssüf doğuran budur ki, ədalətdən dəm vuran ABŞ və Fransa "Rus NATO"sunda təklənmiş işğalçıya qucaq açmaqdaqır. Separatçılara tribuna verilməsinin ayrı izahı yoxdur...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

# Rəsul Quliyev yenə "qayıdır"

## Ağasif Şakiroğlu: "Rəsul müəllimin gəlişi an məsələsidir"

**Amerikada mühacir həyatı yaşayan sabiq spiker Rəsul Quliyevin Azərbaycana nə zaman qayıdacağı bir zamanlar ən çox müzakirə edilən suallar sırasında idi. Son vaxtlar isə eks-spikerlə bağlı bu məsələ, ümumiyyətlə, müzakirələr sırasında deyil.**



Facebook profilində paylaşdığı statuslarda və mətbuata verdiyi açıqlamalarda da R.Quliyev bu məsələyə toxunmur. Bu onun heç zaman ölkəsinə qayıda bilməyəcəyi barədə fikirləri artırmaqdadır.

İki il öncə sabiq spikerin adı İnterpolun axtarış sistemindən çıxarılanda çoxları onun tezliklə Azərbaycana dönəcəyini deyirdi, tərəfdarları da fəallaşmışdı. Lakin gözləntilər özünü doğrultmadı.

R.Quliyevin reytinqinin əvvəlki zamanlar kimi olmadığı da açıq görünür. Bu amilin onun ölkəmizə dönməsində "yaşıl işıq" yandıracağı vurğulanır. Yeni Azərbaycan iqtidarının əvvəlki zamanlarda ona rəqib olan sabiq spikerin nüfuzu düşdüyü üçün onun ölkəyə dönüşünə icazə verəcəyi qeyd olunur.

**R.Quliyevin Azərbaycandakı nümayəndəsi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu "Yeni Müsavat"a açıqlamasında səslənən fikirlərlə razılaşmadığını söylədi:** "Rəsul müəllimin gəlişi an məsələsidir və aktuallığını itirməyib. Bu istiqamətdə ən yüksək səviyyədə müəyyən işlər görülüb və görülür. Sadəcə, əvvəllər prosesin gedişatına uyğun olaraq ətrafımızdan mətbuata məlumatlar sızdırılırdı, özümüz görülən işlərlə bağlı mətbuata məlumatlar verirdik. Amma hazırda bu mövzuda mətbuata bağlıyıq desək daha doğru olar. Əmin ola bilərsiniz ki, Rəsul Quliyev Azərbaycana mütləq gələcək, ən qısa zamanda buna hər kəs şahidlik etmiş olacaq. Bizlər demək olar ki, bu mövzuda gündəlik iş aparırıq. Hətta deyərdim ki, əvvəllər görülmüş işlərdən daha çox işlər görürük. Bu suala səmimi cavab verməyim prosesə zərər vermiş olar. Bir onu deyə bilərəm ki, görülmüş işlərin mahiyyətini sizli, bizli bütün cəmiyyət çox yaxın dövrlərdə görmüş olacaq. Hesab edirəm ki, suallara cavabı qarşıdakı aylarda Bakıda Rəsul Quliyevin də iştirak edəcəyi mətbuat konfransında cavab tapmış olacaqsınız. Həmin zaman sizə səmimi cavab verməyə imkan olacaqdır. Biz ümidlərlə yaşamırıq. Real prosesləri dəyərləndiririk, qərarlar alırıq. Rəsul Quliyevin Azərbaycana dönüşünə geopolitik proseslərin çox böyük təsiri var. Həm də deyərdim ki, Azərbaycan hakimiyyətinin iradəsi bu prosesdə rol oynayır. Hesab edirəm ki, siyasətdə düşmənçilik olmamalıdır. Siyasətdə alternativ düşüncə, tənqidin olması cəmiyyətin inkişafına gətirən amillərdir. Ən əsas da siyasətdə, ölkədə siyasi qüvvələr arasında milli barış lazımdır. Bizlərin bir dövlət və xalq olaraq Qarabağ böyüklüyündə dərdimiz var. Hesab edirəm ki, bu səbəbdən də siyasi qüvvələr arasında milli barış mütləqdir və qaçılmazdır. Siz heç düşünmüsünüzmü ki, siyasi qüvvələr arasında milli barış Azərbaycana, xalqımıza nələr verə bilər? Hesab edirəm ki, hər kəs bu barədə düşünsə, yaxşı nəticələrə gəlmiş olar. Rəsul Quliyev elə hər zaman olan Rəsul Quliyevdir. Onun özü ilə hər gün danışılır və bu istiqamətdə qətiyyətli işlər görürük. Yeni bizlər pessimizmə qapanmamışıq... Təhlükə və təhlükəsiz məsələsinə gəldikdə isə Rəsul Quliyev dövlətə və Azərbaycan dövlətçiliyinə heç bir zaman təhlükə olmayıb. Bunu hər kəs görüb və bilir. Müxalifətçi, müxalifət lideri olmaq təhlükəli olmaq demək deyil. O, şəxslərdən təhlükə gözləmək olar ki, dövlət və dövlətçilik anlayışı kasıb olsun".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

---

**Azərbaycana qarşı separatçılıq edən və bu il sentyabrın 6-da Rusiya polisi tərəfindən saxlanılan "Tolışi Sədo" qəzetinin keçmiş baş redaktoru Fəxrəddin Abboszadənin Azərbaycana ekstradisiyası iki ay yarım müddət keçsə də hələ reallaşmayıb. F.Abboszadə saxlanılandan sonra Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Rusiya hüquq-mühafizə orqanları arasında bu işin mümkün qədər tez həyata keçirilməsi üçün müvafiq hüquqi işlərin həyata keçirilməyə başlandığı barədə xəbər yayılmışdı. Ancaq hələ də rəsmi açıqlanmayan səbəblərdən məsələ həllini tapmamış qalır.**

# Rusiya Fəxrəddin Abboszadənin ekstradisiyasını yubadır

## Əsabəli Mustafayev: "Onun burada mühakimə olunmasına və barəsində qanunun nəzərdə tutduğu qərarın çıxarılmasına böyük zərurət var"

Xatırladaq ki, Fəxrəddin Abboszadə sentyabrın 6-da Moskva vilayətinin Lüberets rayonunda həbs olunub. Rusiya KİV-i yazmışdı ki, o, Azərbaycan hüquq-mühafizə orqanlarının rəsmi sorğusu əsasında federal axtarışa verilib və bunun əsasında saxlanılıb. Sentyabrın 7-də isə Moskva vilayəti Lüberets rayon məhkəməsinin hakimi İ.Juravlevin hökmü ilə Azərbaycana ekstradisiya olunması üçün 1 aylıq müddətə barəsində həbs-qətimkan tədbiri seçilib.



Fəxrəddin Abboszadə Ələkrəm Hümmətov tərəfindən 1993-cü ildə yaradılmış qondarma "Talış-Muğan Respublikası Milli Məclisinin sədri" təyin olunmuşdu. Ölkə ərazisinin bölünməsinə yönəlmiş separatçı fəaliyyətinin qarşısı alındıqdan sonra qaçıb Rusiyaya sığınan Abboszadə uzun müddətdir xaricdən Azərbaycan dövlətçiliyi əleyhinə mütəmadi təxribat xarakterli kəskin çıxışlar edirdi. O, ermənilərə məxsus KİV-də də Azərbaycana qarşı separatçı çıxışlar edib. F.Abboszadənin Ermənistan xüsusi xidmət orqanları ilə sıx əlaqədə olduğu güman edilir.

Dəfələrlə İrəvanda separatçı tədbirlərə qatılan F.Abboszadə Azərbaycanı, hakimiyyəti, müxalifəti, siyasi partiyaları, medianı ən müxtəlif "cinayətlər, repressiyalar, təqib"lərdə suçlayıb.

Fəxrəddin Abboszadənin beynəlxalq axtarışa verilməsi təşəbbüsü ilə Azərbaycanın Baş Prokurorluğu çıxış edib. 12 iyul 2018-ci ildə onun haqqında cinayət işi açılıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar, hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma) və 283.1-ci (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) maddələri ilə ittiham edilir.

Rusiya ilə Azərbaycan arasında qarşılıqlı hüquqi yardım sənədi var. Bu sənəd əsasında uzun müddətdir hüquqi əməkdaşlıq edilir. Adətən ekstradisiya məsələləri uzun çəkmir. Praktika göstərir ki, təxminən bir-iki həftəyə həyata keçirilir. Lakin Fəxrəddin Abboszadə məsələsinin hələ də həllini tapmaması belə rəy yaradır ki, burada siyasi məqamlar var. Hüquqşünaslar və politoloqlar hesab edir ki, ola bilsin Moskva Fəxrəddin Abboszadə məsələsindən siyasi məqsədlər üçün yararlanmaq istəyir. **Məsələn, politoloq Natiq Miri bildirdi ki, burada Rusiyanın siyasi maraqlarının olduğu getdikcə təsdiqini tapır. Fəxrəddin Abboszadənin iki ay yarım keçməsinə baxmayaraq Azərbaycana təhvil verilməməsi buna şübhə yeri qoymur:** "Əvvəldən də belə fikirlər var idi ki, ortada siyasi maraq varsa, təhvil verilməsi uzun müddət apara bilər. O yerdə ki, hüquqi məqamlar arxa plana keçirilir, siyasi məqamlar önə çıxarılır, belə olur.

Fəxrəddin Abboszadənin saxlanılmasına baxmayaraq təhvil verilməməsi ortaya başqa bir ehtimalı da çıxarır. Ola bilsin ki, bu adamı bir qədər də şişirtmək, onu populyarlaşdırmaq, ciddi bir fiqura çevirmək məqsədi də güdülüb onu saxlamaqla. Əgər belə deyilsə və ortada siyasi maraqlar yoxdursa, Rusiyanın hüquq-mühafizə orqanları Fəxrəddin Abboszadəni Azərbaycana təhvil verməliydilər və verməlidirlər. Çünki onun Azərbaycana, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı çoxsaylı çıxışlarının, hərəkətlərinin, çağırışlarının olduğunu təsdiqləyən kifayət qədər sübutlar var. İstənilən şəxs facebook-da, müxtəlif internet resurslarında araşdırma verməklə də buna şahid ola bilər. Fəxrəddin Abboszadə Azərbaycan Konstitusiyasını pozan çağırışlar, çıxışlar edib. Fəxrəddin Abboszadəyə Rusiyada məhkəmənin verdiyi bir aylıq həbs müddəti 7 oktyabrda başa çatıb. Onu 7 oktyabra qədər təhvil verməli idilər. Yaxud da məhkəmə həbs müddətini uzatmalı idi və ya azad etməliydi. Lakin Fəxrəddin Abboszadə hələ təhvil verilməyib. Maraqlıdır ki, onun həbs müddətinin uzadılması barədə də hansısa məlumat yayılmayıb. Ümumiyyətlə, faktiki olaraq bu məsələdə bir müəmmalı vəziyyət var".

**Tanınmış vəkil Əsabəli Mustafayev isə F.Abboszadənin hərəkətlərinin Azərbaycan Cinayət Məcəlləsinə görə cinayət məsuliyyəti yaratdığını bildirir. Odur ki, həmin şəxsin Azərbaycana gətirilməsi, burada mühakimə olunması və barəsində qanunun nəzərdə tutduğu qərarın çıxarılmasına böyük zərurət var:** "Etnik mənsubiyyətindən asılı olmayaraq heç bir vətəndaşa Azərbaycan Konstitusiyasını, qanunları pozmaq, Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmaq yolverilməzdir. Bunu edən istənilən vətəndaş qanun qarşısında cavab verməlidir. Azərbaycan vətəndaşısansa, bu ölkənin qanunlarına tabe olmalısan".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

**Bu günlərdə Fransada benzinin qiymətinin artmasına qarşı keçirilən etiraz aksiyaları zamanı xəsarət alanların sayı 400 nəfəri ötüb. Aksiyalar zamanı təqribən 300 nəfər saxlanılıb, onlardan 157 nəfər həbs olunub. Məlumata görə, etiraz aksiyalarında ölkə üzrə təxminən 288 min nümayişçi iştirak edib.**

fizəsi tələbi ilə keçirilən kütləvi aksiyalar ölkənin bir neçə şəhərində təşkil olunub. Polisin sözlərinə görə, Parisdə keçirilən nümayişdə 18,5 min nəfər iştirak edib. Təşkilatçılar isə aksiyada 50 min nəferin iştirak etdiyini bildiriblər.

Analoji aksiyalar habelə digər şəhərlərdə də keçirilib. Müxtəlif hesablamalara görə, Lionda keçirilən aksiya 10 min nəfəri bir araya gətirib. Marsel küçələrinə 2,5 min nəfərə qədər diriblər.

Parisdə və Liondakı aksiyalar vətəndaş hərəkatı olan "Manifestasiya hamı üçün" tərəfindən təşkil olunub. Bu hərəkatın çağırışı ilə aksiyaçılar toplaşaraq yürüş keçiriblər. "Parizyen" nəşrinin verdiyi məlumata görə, nümayişçilərin kolonu 6 kilometrə qədər uzanıb. Daha öncədən də aksiya təşkilatçıları bəyan ediblərmiş ki, Fransa paytaxtında on minlərlə adam toplaşacaq.

insan ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımaq barədə qərarına qarşı etiraz aksiyasına çıxıb. Mitinqçilər həmçinin İsrailin baş naziri Binyamin Netanyahunun dekabrın 10-da Parisə planlaşdırılan səfəri və onun prezident Emmanuel Makronla aparacığı danışıqlara qarşı çıxıblar. Parisdə keçirilən nümayişdə təqribən 400 nəfər iştirak edib. Eyni zamanda təqribən 500 nəfər Marseldə, 300 nəfər isə Lionda

# Daim narazı fransızlar...

## Onlar hər şeyə etiraz edirlər - havaya da, suya da, eynicinsli nikahlara da...







Qeyd edək ki, nümayişlər noyabrın 17-də başlayıb, noyabrın 18-də də qismən davam edib. Daha əvvəl aksiyalar zamanı 200-ə yaxın insanın xəsarət aldığı bildirilirdi.

Fransanın baş naziri Eduar Filip avtomobil yanacağının qiymətinin artmasına səbəb olan istixana qazı tullantısına qoyulan verginin ləğv olunmayacağını bəyan edib.

İlk gündən isə xəbər verilmişdi ki, Fransada keçirilən aksiya "Sarı jiletlilər" tərəfindən həyata keçirilib. İlk günlər aksiyaya 124 000 nümayişçi qatılmışdı. Paris və ətraf şəhərlərlə müqayisədə Fransanın regionlarında aksiyaya daha çox insan qoşulub.

"Yeni Müsavat" isə xatırladır ki, bu, son illər Fransadakı ilk səs-küylü aksiya deyil. Bundan öncə də fransızlar bir-birindən fərqli səbəblərlə etiraz aksiyaları keçiriblər. 2017-ci ilin aprelində Fransada prezident seçkilərinin ilkin nəticələrinin elan olunmasından sonra ölkədə etiraz aksiyaları başlayıb. Aksiyalar Parisin mərkəzində, Bastiliya meydanında keçirilib. Polislər yaxınlıqdakı küçələrə giriş-çıxışı bağladıqlarından toplaşan insanlar meydanın mərkəzində sütunların ətrafında gəzirlər.

2018-ci ilin aprelində isə Fransanın Dəmiryol Şirkətinin işçilərinin tətil aksiyaları reallaşıb. Həmin vaxt qatarların yarısı reysdən çıxıb və işçilər işi dayandırıblar. Həmin ərəfədə Fransanın hava yolları şirkətinin işçilərinin tətil aksiyaları da iki həftədən artıq davam edib və nəticədə təxminən 15% uçuş ləğv olunub. Aksiyaçılar iqtisadi siyasətlərin investorların xeyrinə islah edilməsinin qarşısının alınmasını istəyiblər. Bu islahata Fransa prezidenti Emmanuel Makron başlayıb.

Aksiyaların davam etdiyi ərəfədə Fransada hava və dəmir yolları sektorlarında tətil aksiyalarının xəsarəti 600 milyon avroya çatıb və bu ölkənin turizm sektoruna da azı 1,5 milyard avro ziyan vurub.

Eyni zaman kəsimində Fransanın təhsil sistemində dəyişikliklərə etiraz olaraq tələbə aksiyaları keçirildi.

**İqlim dəyişikliklərini də bəyənməyib, küçəyə tökülüblər**

2018-ci ilin sentyabrında Fransada on minlərlə insan etiraz aksiyası keçirib. İqlim dəyişiklikləri və ətraf mühitin mühanümayişçi çıxıb.

2016-cı ilin iyununda Fransada əmək məcəlləsinə dair qanun layihəsinə qarşı etirazlar həyatı iflic edib. Ölkənin müxtəlif şəhərlərində 1 milyondan çox insan aksiyalara qatılıblar. Nümayişlər zamanı polislə etirazçılar arasında toqquşmalar baş verib. İnsidentlər nəticəsində 24-ü polis olmaqla 41 nəfər yaralanıb, 58 etirazçı saxlanılıb. Həmkarlar ittifaqlarının yaydığı məlumata görə, polis etirazçıları dağıtmaq üçün gözyaşardıcı qazdan və dəyənəklərdən istifadə edib. Çox sayda avtomobilə və mağazaya ciddi ziyan dəyib.

Jurnalistlərə açıqlama verən Fransanın baş naziri Manuel Vals baş verən hadisələrə baxmayaraq, layihədən imtina etməyəcəklərini deyib.

2016-cı ilin 21 oktyabrında isə Fransanın paytaxtında polis əməkdaşlarının etiraz aksiyaları keçirilib. Etiraz aksiyaları xuliqanlarla qarşıdurmaların nəticəsində xəsarət alan həmkarlarına dəstək əlaməti olaraq keçirilib.

2017-ci ilin sentyabrında da Parisdə etiraz aksiyası keçirilib. Aksiya iştirakçıları əmək qanunvericiliyinə təklif olunan dəyişikliklərə etirazlarını bildiriblər. On minlərlə insan Bastiliya meydanından İtaliya meydanına doğru irəliləyib. Aksiyaçılarla hüquq-mühafizə orqanları arasında qarşıdurma yaşanıb. Məlumata görə, polislər aksiya iştirakçılarına qarşı gözyaşardıcı qazdan istifadə ediblər. Bu gün Fransanın Marsel, Kan, Monpelye, Bordo, Lion və digər şəhərlərində də etiraz mitinq-yürüşləri keçirilib.

**Kim deyir ki, fransızlar eynicinsli nikahlara razıdır?**

2014-cü ilin fevralında isə Parisdə eynicinsli nikahlara qarşı olan etirazlar təşkil olunub. 80 mindən 500 minədək insan Paris küçələrinə çıxaraq eynicinsli nikahlara qarşı etirazlarını bildiriblər. Fevralın 2-də 500 min nəfərdən çox insan Parisə çıxaraq 8 ay öncə bircinsli nikahların leqallaşdırılmasını nəzərdə tutan qanunun qəbul edilməsinə qarşı etirazlarını ifadə ediblər. Bu barədə aksiyanın təşkilatçıları bildiriblər. Polisin məlumatlarına görə, Fransa paytaxtındakı yürüşdə 80 min nəfər iştirak edib. Lionda isə polis 20 min etirazçı olduğunu hesablayıb. Nümayişçilər isə 40 min nümayişçinin olduğunu bil-

O da bildirilir ki, polis Parisdə ultrasağ "Müdafiə İttifaqı qrupu"nun 12 tələbə-fəalını saxlayıb. Bunlar nümayişçilərə qoşulmaq istəyənlər olub.

Fransa hökuməti nümayişlərin radikallaşması cəhdlərinə kəskin reaksiya verib. Daha öncədən ekstremistlərə ehtiyatlı olmalarının lazım gəldiyi ilə bağlı ölkə prezidenti və Daxili İşlər Nazirliyi də müraciət edib. Proses prezident Ollanda qarşı etiraz aksiyası sağ radikalların polislə toqquşmasına gətirib çıxarıb. Hüquq-mühafizə orqanlarının 19 əməkdaşı yaralanıb, 226 insan isə saxlanılıb. "Parizyen" nəşrinin bildirdiyinə görə, bir neçə demonstrant Parisdə Ukrayna bayraqları ilə addımlayır, Danfer meydanında isə yürüşün sonunda Ukraynadakı mitinq iştirakçılarının şərəfinə fikir bildiriblər.

2017-ci ilin dekabrında Fransada minlərlə insan Trampın Qüdslə bağlı qərarına qarşı aksiya keçirib. Fransanın müxtəlif şəhərlərində bir neçə min küçələrə çıxıb.

**Bu dəfə Fransa polisi küçəyə çıxıb**

2016-cı ilin oktyabrında Fransa polisi hakimiyyətin diqqətini çətin iş şəraitinə cəlb etmək məqsədilə yenidən etiraz aksiyası keçirib. Təqribən 500 polis əməkdaşı cümə axşamı Eyfel qülləsinin qarşısında yerləşən Trokadero meydanına toplaşıb. Onlar əvvəllər xuliqanların hərəkətlərindən zərər çəkən həmkarlarına dəstək şüarları, həmçinin daxili işlər naziri Bernar Kaznevin istefasına çağırışlar səsləndiriblər.

Analoji aksiyalar Fransanın digər şəhərlərində də keçirilib. Fransa polisinin etiraz aksiyası keçirməsinə oktyabrın 8-də Paris qəsəbələrindən birində naməlum şəxslərin polis avtomobilinə "Molotov kokteyli" atması səbəb olub. Həmin hadisə zamanı bir asayiş keşikçisi ciddi yanıq xəsarətləri alıb. Ondan sonra daha bir oxşar hadisə baş verib.

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**



Vladimir Putin

# Kürdlər Deyr əz-Zoru, Bəşər Əsəd isə İdlibi götürməyə çalışır

## Suriya hökuməti İdlibdə əməliyyata hazırlaşır, Putin razılıq verəcəkmi?

**Noyabrın 10-da ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq koalisiya aviasiyasının Fəratın şərq sahilində yerləşən Hacin şəhərinə endirdiyi hava zərbələri nəticəsində 26 nəfər həyatını itirib. Bu barədə Suriya mediası İnsan Haqları Müşahidə Evi məlumat yayıb. Məlumatda bildirilir ki, koalisiya təyyarələri İŞİD-in ön mövqelərinə hücum etsələr də, dinc vətəndaşların evlərini bombalayıblar.**

Ancaq amerikalılar məlumatı təsdiq etmir. Vaşinqton mülki itkilərin olmadığını, hava zərbələrinin əsasən İŞİD mövqelərinə endirildiyini bəyan edib.

Lakin bu ittihamlar ilk dəfə deyil. Oktyabrın 24-də koalisiya aviasiyası Deyr əz-Zor vilayətində məscidi bombalamışdı. Bu məsələ xeyli böyüdükdən sonra ABŞ ordusunun nümayəndəsi polkovnik Şon Rayan deyib ki, koalisiyanın oktyabrın 24-də endirdiyi zərbə İŞİD-ə məxsus olan və kürdlərə qarşı hücumda istifadə olunan nöqtələrə edilib. Belə nöqtələrdən biri də sözügedən məscid olub. ABŞ Quru qoşunları komandanlığının qiymətləndirməsinə görə, zərbə endirilən zaman məsciddə yalnız İŞİD yaraqlıları olub.

Qeyd edək ki, hazırda Suriyanın şərq rayonlarında çöllük bölgələrdə hələ də İŞİD-in nəzarətində olan kiçik bölgələr var və burada zaman-zaman ABŞ-ın himayə etdiyi kürd silahlıları ilə toqquşmalar baş verir. Çünki bu bölgə Suriyada neft və qaz istehsal olunan əsas yerdir və bu baxımdan indi bütün tərəflər bu bölgəyə nəzarət etməyə çalışır. Bu ilin fevralında da Rusiyaya məxsus silahlılar məhz burada ABŞ koalisiyası ilə rus "Vaqner" qrupunun silahlıları arasında toqquşma baş vermiş və yüzdən çox rus silahlısı öldürülmüşdü.

Hazırda Suriya ordusu da ölkənin şərqindəki İŞİD mövqelərinə qarşı kiçik miqyasda əməliyyatları davam etdirir. Belə görünür ki, kürdlər ABŞ ordusunun (Beynəlxalq İŞİD əleyhinə koalisiya - K.R.) dəstəyi ilə Deyr əz-Zor və ətrafındakı İŞİD nöqtələrini ələ keçirmək və bölgədə möhkəmlənməyə çalışırlar. Çünki hazırda Dəməşq gücləri İdlib ətrafında qalıb. Deyr əz-Zor isə bütün parametrləri ilə ABŞ ordusu və kürdlərin əsas maraq dairəsindədir. Çünki indi hər kəsə aydındır ki, İdlib ətrafında sular durulduqdan sonra Suriya hakimiyyəti üzünü kürdlərə tərəf çevirəcək.

Bu barədə ötən həftə Londonda dərc olunan ərəb dilli "Ray əl-Yaum" qəzeti Suriya hökumət qüvvələrini İdlib ətrafına topladığını yazıb. Qəzet mənbələrə istinadən yaxın günlərdə İdlibdə əməliyyatların başlaya biləcəyini iddia edir.

Məsələ ondadır ki, son həftələrdə Soçi anlaşmasının icrası yubadılır. Eləcə də bölgəyə yerləşən Suriya ordusu qüvvələrinə hücumların sayı artıb. Rusiya XİN isə silahlı qrupların İdlibdə atəşkəslə bağlı müvafiq Rusiya-Türkiyə anlaşmasına riayət olunmadığını, silahlıların hökumət qüvvələrini təxribata çəkdiyini qeyd edib.

Bu barədə İran XİN rəhbərinin bir neçə gün əvvəl Moskva səfərində də müzakirələr aparılıb. Ərəb mənbələri isə hazırda İran və Suriya hökumətlərinin Rusiyanı İdlibdə əməliyyatın keçirilməsinə inandırmağa çalışdığını yazır. Əsas arqument isə qarşı tərəfin, yeni Türkiyənin və silahlı qrupların müvafiq öhdəlikləri icra etmədiyi ilə bağlıdır.

Yeri gəlmişkən, noyabrın 19-da İstanbula, "Türk axını" layihəsinin açılış mərasiminə gələn Rusiya prezidentinin günortadan sonra Soçiyə uçacağı bildirilir. Rusiya prezidentinin burada ordu komandanlığı ilə müzakirələr aparacağı, silahlı qüvvələrin yenidən qurulması istiqamətində qərarlar qəbul edəcəyi bildirilir. Ehtimal ki, Putin İstanbulda və daha sonra Soçidə Suriya məsələsi, xüsusən də İdlibin taleyi ilə bağlı müzakirələr aparacaq. Ankaranın İdlib atəşkəsi ilə bağlı öhdəlikləri yerinə yetirməsini istəyəcək. Türkiyə hakimiyyəti isə hələlik görünən odur ki, İdlibdəki fərqli ölkələrin təsiri altında olan silahlı qruplarla anlaşa bilmir. Ötən gün Türkiyə ordusunun Suriyada nəzarət etdiyi bölgələrdə qarət və ordudan yayınma hallarına qarşı mübarizə məqsədilə reydlər başladığı haqda xəbərlər yayılıb. Ehtimal ki, pərakəndə, əsasən maraq qruplarından formalaşan və fərqli ölkələrin təsiri altında olan bu silahlı qruplar Türkiyənin İdlibdəki siyasətinə problem yaratmağa başlayıb. İndi Ankaranın qarşısında dayanan əsas vəzifə ilk növbədə bu qrupları nəzarət altına almaq, tabe olmayan qrupları isə kənarlaşdırmaq və mümkün qədər sürətli şəkildə atəşkəs anlaşmasının icrasını təmin etməkdir. Əks təqdirdə, Ankaranın İdlibdəki planları pozula bilər. Çünki hazırda hərbi və siyasi baxımdan xeyli güclənən və getdikcə regionda daha çox ölkə ilə əlaqələrini qaydaya salan Bəşər Əsəd qarşısında İdlib əsas manelərdən birinə çevrilib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

**Uzun müddətdir Türkiyədəki "Amerikan Hastahanesi"ndə müalicə alan sabiq vergilər naziri Fazil Məmmədov oktyabrın 16-da Azərbaycana qayıdıb. Modern.az-ın Gəncədəki mənbədən əldə etdiyi məlumata görə, F.Məmmədov Azərbaycana qayıdan kimi, oktyabrın 16-sı gecə ilə Gəncə Beynəlxalq Hospitalına yatırılıb.**

Sabiq nazirin qış aylarında Gəncə Beynəlxalq Hospitalında tibb elmləri üzrə fəlsəfə doktoru İlyas Həsənovun nəzarəti altında olacağı bildirilir. Mənbə qeyd edir ki, Türkiyədəki həkimlər F.Məmmədovun ölümlə üzləşdiyi ağır xəstəlikdən sonra səhhətinin tam normallaşması üçün Azərbaycanda reabilitasiya keçməsini məsləhət görüblər.

Eks-nazir bu səbəbdən də mütəmadi olaraq səhhəti ilə bağlı müalicə aldığı şəxsi xəstəxanasına üz tutub. Əldə etdiyimiz daha bir məlumata görə, həkimlər yaşaması üçün F.Məmmədova spirtli içki yasağı qoyublar.

Xatırladaq ki, bir müddət Gəncə Beynəlxalq Hospitalında tibb elmləri üzrə fəlsəfə doktoru İlyas Həsənovun nəzarəti altında müalicə alan Fazil Məmmədovun sonrakı müalicəsinin Türkiyədə davam etdirilməsi qərara alınmışdı. F.Məmmədov 2018-ci ilin iyununda Fransadan xüsusi sifarişlə gətirilən ambulans təyyarə ilə Türkiyəyə aparılıb. O, "American Hastahanesi"nin professorları Orhan Bilge və Mustafa Keremin nəzarətində olub.

Müayinələr zamanı Fazil Məmmədovda pankreatit aşkarlanmışdı. Sabiq nazir Türkiyədə olarkən, səhhətinin nisbətən stabilləşdiyi dövrlərdə məşhur "Çırağan Palace"da da dincəlib.

"Yeni Müsavat" isə xatırladır ki, bu, vəzifəsini itirən ilk nazirin xəstələnməsi xəbəri deyil.

# Vəzifəsini itirən məmurlar niyə dərhal xəstələnir?

## Əhməd Qəşəmoğlu: "Ortada biabır olmaq və cəza almaq təhlükəsi var... Bu da stress yaradır"



Daha öncə də yüksək vəzifəsini itirmiş nazirlərin, məmurların dərhal müalicə üçün xarici ölkələrə, ya da elə yerli xəstəxanalara - hərçənd ki, bu nümunə olduqca azdır - müraciət etməsi halları geniş yayılıb. Ya da türməyə düşən məmurların dərhal xəstələnməsi, müalicə üçün xəstəxanaya köçürülmə müraciətini də zaman-zaman izləmişik. İlkin rəylər belədir ki, bu, bir çox hallarda psixoloji gərginliyin nəticəsidir. Yeni tibbi rəylərə əsasən, gərginlik bir çox xəstəlik ocaqlarını tətikləyir və nəticədə uzun illər gərgin şəraitdə çalışan məmurun sağlamlığında daha öncə özünü göstərən problemlər birdən-birə partlayış kimi üzə çıxır.

Eks-nəqliyyat naziri Ziya Məmmədovun, sosial müdafiə naziri Səlim Müslümovun səhhətində də buna bənzər hallar yaşanıb. Həbsə düşən məmurların dərhal həkimə müraciəti isə sözügedən şəraitə adaptasiya ola bilməməsi ilə bağlıdır. Amma daha böyük fakt isə Azərbaycanda məmurların vəzifəsini itirməsi ilə həyatlarındakı bütün imtiyazları eyni zamanda itirməsidir. Çünki məmur bilir ki, kreslosu ilə vidalaşıbsa, yüksək həyat standartlarına da dərhal əlvida deyir.

**Amma siyasi analitiklərə görə, sabiq məmurlar bəzən iz itirmək, diqqəti özündən yayındırmaq, başqalarının ona acıması üçün xəstəlik "arqumentindən" istifadə edir. Amma məsələnin psixoloji-sosial, yəni elmi izahı da var. Sosioloq Əhməd Qəşəmoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, insanın vəzifəsini itirməsi ilə xəstələnməsi, əməliyyata ehtiyac duyması arasında bir əlaqə var. Müsahibimiz tanışları arasında vəzifəsini itirən kifayət qədər insanlar olduğunu xatırlatdı:** "Onların vəzifəsini itirməyini belə izləmişəm. 1997-ci ildə mənim də kifayət qədər böyük vəzifəm vardı. Mən o vəzifəni itirdim. Amma vecimə də olmadı. O baxımdan durumu həm praktik, həm də nəzəri cəhətdən izah edə bilərəm. Bu, hər bir insanın üstünlük verdiyi dəyərlərdən asılıdır. Bəzi insanlar daha çox elə dəyərlərə üstünlük verir ki, o, maddiyyatla, şöhrətlə bağlıdır. Onun psixologiyasında cinayət tərkibli nəsə varsa, vəzifəsini itirəndə böyük gərginlik keçirirlər. Həyata maddi məqamlarla bağlı olan, əməllərində cinayət tərkibi olan insanlar vəzifələrini itirəndə qorxu və stress yaşayırlar. Onlar düşünürlər ki, bir azdan yoxlama ola və nələrsə üzə çıxa bilər. Ortada biabır olmaq və cəza almaq təhlükəsi olur. Bir çoxu da pul itirdiklərinə görə gərginlik keçirirlər. Çünki bəzi məmurlar işlərini itirməmək üçün öncədən çoxlarına pul verirlər. Ortada pul da itib batır. Bu, insanın fəaliyyətinin növündən, psixologiyasından, həyata baxışlarından asılıdır. Elə insan var ki, çox təbii qarşılayır".

**Müsahibimiz xatırlatdı ki, zamanında Milli Məclisdə böyük vəzifə sahibi idi. Ə.Qəşəmoğlu vəzifəsini itirdiyi zaman bundan sonra daha çox elmi, bədii fəaliyyətlə məşğul olacağının sevincini yaşadığını dedi:** "Çünki həmin vəzifədə olanda nə elmi, nə də bədii fəaliyyətlə məşğul ola bilirdim. Vəzifədə olanda da deyirdim ki, görəsən, nə zaman bu işdən canım qurtulacaq. Bu məmurların çoxunun fəaliyyətində də cinayət tərkibli məqamlar çox olur. Ona görə də bu kimi hallar baş verir. Başqa ölkələrdə də insanlar işdən çıxırlar. Amma buna bizdəki kimi faciəvi yanaşılmır, sakit qarşılayırlar" .

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**



## Bakıda marşrut avtobusu zəncirvari qəza törətdi, sürücüsü öldü

**Bakıda marşrut avtobusu qəza törədib. Bu barədə musavat.com-a Daxili İşlər Nazirliyindən məlumat verilib. Belə ki, noyabrın 17-də saat 21 radələrində Nəsimi rayonunun Cavadxan küçəsində Bakı şəhər sakini Əbdürəhman Ərəbov idarə etdiyi "Daewoo" markalı 170 saylı xətt avtobusunu qarşıdakı işıqforda dayanmış 3 avtomobilə vurub.**

Xəstəxanaya yerləşdirilmiş avtobusun sürücüsü noyabrın 18-də orada ölüb.

Nəsimi Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Ovda bədbəxt hadisə - ördəyə güllə atdı, dostuna dəydi

**Rusiyanın Krasnodar diyarında ördək ovu zamanı ovçulardan biri həmkarını vurub. "Trend"in məlumatına görə, yanlış açılan atəş nəticəsində həmin şəxs başından ağır yaralanıb.**

Ovçu xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

Hazırda hadisənin təfərrüatı ilə bağlı araşdırma aparılır.

Atəş açan şəxs saxlanılıb.

## Bakıda ögey qardaşları güllələyən şəxs tutuldu

**Bakıda ögey qardaşları güllələyən şəxs tutulub. DİN-dən musavat.com-a verilən məlumata görə, noyabrın 17-də Xəzər rayonunun Şüvəlan qəsəbəsi ərazisində yerləşən pansionatın qarşısından orada yaşayan Sərvər Quliyev güllə xəsarəti, ögey qardaşı, əvvəllər məhkum olunmuş Anar Hüseynov isə alın nahiyəsinin əzilmiş xəsarətləri ilə xəstəxanaya gətiriliblər.**

S.Quliyevin vəziyyəti orta ağırdır, A.Hüseynova ilkin tibbi yardım göstərildikdən sonra buraxılıb.

Xəzər RPİ 1-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində adam öldürməyə cəhddə şübhəli bilinən qəsəbə sakini Qorxmaz Əliyev saxlanılıb, cinayəti törədərkən istifadə etdiyi, kustar üsulla hazırlanmış "Naqan" tipli tapança götürülüb.

Faktla əlaqədar cinayət işi başlanıb.

# Qarabağ veteranının qız övladı ağır durumda - kömək lazımdır



**Qarabağ veteranı Asif Əsədov ağır xəstəlikdən əziyyət çəkən yeniyetmə qızı üçün kömək istəyir.**

A.Əsədov növbəti dəfə redaksiyamıza müraciət edərək, övladının durumunun kritikləşdiyini, müalicəsi üçün imkanı olmadığını bildirib.

O qeyd edib ki, 14 yaşlı qızında anadangəlmə kəskin böyümə hormon çatışmamazlığı, seliakiya xəstəliyi var. Belə ki, xəstəlik üzündən yeniyetmə qız boy qısalığından əziyyət çəkir, yaşıdlarından geri qalır: "14 yaşlı yeniyetmə qızım bu gün fiziki göstəricilərinə görə 7 yaşlı kiçik uşağın göstəricilərinə malikdir və inkşaf etmir. Uzun illər qızımın xəstəliyi ilə bağlı düzgün olmayan diaqnozlar və müalicələr onun sağlamlığını daha da zədələyib. Xəstəlik ucbatından həmçinin qızımın digər orqanları da inkişafdan qalır və bu onun üçün gələcəkdə ciddi fəsadlar yarada bilər. Həkimlər hipovizar nanizimlə əlaqədar analizlərin dərinləşdirilməsi və böyümə hormonu müalicəsi təklif etdilər. Buna əsasən boy hormonunun inkşafı üçün 17 yaşına çatana qədər qızıma mütəmadi iynə vurulmalıdır.

Qeyd edim ki , bu iynələr ifrat dərəcədə bahalı və bir müharibə veteranının məvacibi ilə öhdəsindən gəlinəcək bir məbləğ deyil. Hipovizar nanizim xəstəliyinin müalicəsi erkən dövrlərdə başlamalı və yeniyetməlik dövrünə qədər davam etməlidir. Təəssüf ki, biz artıq 13 ili geridə qoymuşuq və mənim qızımın normal inkişaf etməsi üçün ancaq 3 il zaman mövcuddur. Əks halda, bu tip xəstələrin orqanizmləri məhz uşaq göstəricilərində qalır və onlar gənc yaşlarında dünyasını dəyişirlər.

Xeyirxah və imkanlı şəxslərdən xahiş edirəm, qızımın müalicəsi üçün bizə dəstək olsunlar".

Yeniyetmə qızın həyatını qurtarmaq üçün yardım etmək istəyənlər aşağıdakı telefon nömrəsinə zəng edə bilərlər: 0552289068

❑ **Musavat.com**


## Diqqət! Diqqət!!!

2012-ci ildən bütün beynəlxalq bal sərgilərinin qalibi - Qırğızıstanın dünya şöhrətli "Darı Tyanşana" şirkətinin balları və müalicəvi bal məhsulları geniş çeşidlə Bakıda:

**- Arı südü**
**- Ağ bal (Atbaşı)**
**- Qara bal (Qreçka)**
**- İssık kul balı**
**- Esparset balı**
**- Karkıra balı**
**- Uzqen balı**
**- Suusamır balı**
**- Çayek balı**
**- Mumiya**
**- Şamı nalı və s.**

Diqqətinizə çatdırırıq ki, Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır. Çatdırılma pulsuzdur.

**Əlaqə telefonları: (051) 922-15-71;**
**(055) 300-29-91**
**Ünvan: Neftçi Qurban küçəsi 103**
**5 saylı doğum evinin yaxınlığında.**


**Elan**

**Əliyev Ramiz Niyyətağa oğluna Bakı Şəhər İcra Hakimiyyəti Texniki İnvertarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən 2002-ci ildə verilmiş 015441 nömrəli Qediyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 247 (7136) 20 noyabr 2018

# Bu gecə, Prìştìna - ”ya tamam, ya davam..”

## Millətlər Liqasının son turunda Azərbaycan millisi növbəti mərhələyə vəsiqə əldə etməl üçün qələbə qazanmalıdır...



**Bu gecə Azərbaycan milli komandası Millətlər Liqasının son turunda rəqib meydanında Kosovo ilə qarşılaşacaq. Priştina şəhərində keçiriləcək matç Bakı vaxtı ilə saat 23:45-də başlayacaq. Görüşün baş hakimi fransalı Benua Millot olacaq. Ona Mehdi Rahmouni və Bertran Juanno kömək edəcək.**










Sentyabrın 7-də Kosovo ilə qolsuz bərabərliklə bitən Bakıdakı qarşılaşmadan sonra “Real olaraq 2 xal itirdik. Həm də vacib xal. Əgər bu liqada hansısa iddiamız varsa, 2 xal bizə çox ciddi itkidir, zamanı gələndə bunu etiraf edəcəyik” deyə yazmışdım. Həmin gün, bax bu gündür. Milli komandamızın Malta ilə oyunda itirdiyi xalları qoyuram bir kənara, Kosovonu buradan xalsız göndərə bilsəydik, bu gecə ya “tamam, ya davam” seçimi qarşısında qalmaya bilərdik. Nə isə, belə turnirlərin sonunda bu sayaq “belə olsaydı və ya belə olmasaydı” söhbətləri təbii qarşılanmalıdır.

Millətlər Liqasının 5-ci turunda keçirilən İsveçrə - Belçika oyununa baxdım. İsveçrə 0:2 uduzduğu oyunu 5: 2 qalibiyyətlə başa vurdu. Millətlər Liqası haqda bir müşahidəmi deyim ki, indiyədək baxdığım bir neçə mərkəzi oyunlarda belə sanki nəsə çatmır. Qol var, emosiya var, dartışma var, qırmızı kart var, penalti var, amma yenə nəsə çatmır, futboldan sonadək həzz almaq olmur. Videoxülasəyə baxırsan, elə oyunlar var ki, futbolçular və məşqçilərin sayı qədər azarkeş olur. Bunu turnirin yeni olması ilə izah etmək olar, çünki elə Azərbaycanda futbolla maraqlananlar belə bu Millətlər Liqasının sistemini anlamaqda çətinlik çəkirlər. Çoxları isə heç baxmır da, əhəmiyyətsiz bir turnir hesab edir. Üstəlik, dünyanın tanınmış futbol mütəxəssislərinin bəziləri də turnirin əleyhinə çox danışdı, mənasız hesab etdiklərini dedilər. Belarus, Gürcüstan və Ukrayna öz qruplarında məsələni həll ediblər-növbəti mərhələyə adlarını yazıblar. Ermənistan 9 xal yığıb və onlar da Makedoniya (12 xal) ilə son oyuna ümidləniblər. Qazaxıstan şanslarını itirib. Qalır gözəlim Azərbaycan millisinin bu gün Kosovo ilə qarşılaşmada olmazsa-olmazı...

Kosovonun Malta səfərində 5 qolla qalib gəlməsi, düzü, gözlənilməz oldu. Bizimlə iki oyunda “şir” olan Malta Kosovo ilə qarşılaşmada quzuya dönmüşdü.

Geniş videoxülasəyə baxdım, bir az da utandım. Bu komandaya necə Bakıda qalib gələ bilmədik? Maltanın bu cür ölüvaylığı Kosovonun şansına işlədi. Həm mühüm 3 xalı qazandılar, həm stadionda istirahət etdilər. Bu komanda Bakıdakı oyunda heç-heçəyə layiq idi, amma bunlara qalib gəlmək mümkünsüz iş deyil. Onlar da bizim kimi bu qrupda uduzmayıblar. İstənilən hesablı heç-heçə Kosovonu təmin edir, bu gecə də meydana o istəklə çıxacaqlar. Azərbaycan isə iki xal fərqini qapatmaq üçün qalib gəlməlidir.

Milli komandamızın Kosovo ilə ilk qarşılaşmadan sonra oyununda irəliləyiş var. Qollarının sayını artırıb, xətlər arasında əlaqə möhkəmlənib, legionerlər formadadır. Farer adaları ilə üç gün əvvəlki oyunda da millimiz pis təsir bağışlamadı. Yeni optimiz üçün əsaslarımız var. Komandanın baş məşqçisi Qurban Qurbanov deyib ki, futbolçular Kosovo ilə matçın vacibliyini dərk edirlər. **“Son oyunumuz olacaq. Hər biri çəkinmədən ən yaxşı oyununu keçirəcək”** deyə, baş məşqçi bildirib. Komanda üzvlərinin də açıqlamalarında bu istək hiss olunmaqdadır. Komandanın oyundan iki gün əvvəl Priştinaya getməsi doğru qərardır və bu oyuna AFFA rəhbərliyinin ciddi önəm verdiyinin göstəricisidir.







Komandada itki olduğunu bilirik. Kamran Ağayev bu axşamkı qarşılaşmada meydana çıxmayacaq. Kamranı Sələhət Ağayev əvəz edəcək. Bu qapıçı məsələsi futbolda gördüyünüz kimi, ikinci planı keçməkdədir. Heç bir klub qapısı üçün səxavətli pul xərcləmir, əvəzində hücumçuya, yarımmüdafiəçiyə astronomik para xərcləyirlər. Deməyim odur ki, indi yaxşı komandanın qapıçısından daha çox, müdafiəsi etibarlı olmalıdır. Kamranın olmaması itkidir, amma əvəzedilməz kimsə yox. Bu da Sələhət Ağayev üçün bir tarixi şansdır, “ya tamam, ya davam” qarşılaşmasında yer almaq, qələbəyə qatqı qatmaq şansı...

Azərbaycan milli komandası Kosovoya qalib gələ bilməsə, burada “top-tüfənglə” qarşılanmayacaq, bir neçə sayt yazacaq, sonra hər şey unudulacaq. Amma Azərbaycan Kosovanı 5 turdur oturduğu liderlikdən və növbəti mərhələdən etsə, bu, azarkeşlər üçün bayram əhval-ruhiyyəsi yaradacaq. Hətta komandanı gedib aeroportda gül-çiçəklə qarşılarıq. Yetər ki, qələbə olsun...

❑ **Nazim SABİROĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 247 (7136) 20 noyabr 2018



# Taksi sürücüsü pulunu unudan sərnişini 8 saat gözlədi

Moskva şəhərində Qırğızıstandan olan taksi sürücüsü maşınında pulqabını unudan sərnişinə onu qaytarmaq üçün səkkiz saat gözləyib. Qız bu barədə facebook səhifəsində məlumat verib. Varya Bortsova Moskvaya səhər saat 5-də gəlib və evə getmək üçün taksiyə minib. Evə çatan kimi yatan və növbəti gün oyanan qadın görüb ki, maşında pulqabısını və bank kartlarını itirib. Qız sürücünü yardım xidməti vasitəsilə tapmağa çalışsa da, buna nail olmayıb. "Növbəti yarım saat mən panika işində təsəvvür edirdim ki, rus mafiyası mənim şəxsiyyət vəsiqəmi oğurlayıb və Soçidə mənim pullarım hesabına kef edir"- bunu da qız deyib. Bu zaman qızın atası pəncərədən blokun qabağında dəqiqələrdir dayanan bir taksi sürücüsü görüb.

Məlum olub ki, taksi sürücüsü də maşında unudulmuş pulqabı görən kimi onun sahibini axtarmağa başlayıb. Taksi parkında sərnişin barədə məlumatlar olmayıb. Bu zaman o, qızı qoyduğu evin qabağına gəlib və blokun qarşısında gözləməyə başlayıb. Bortsova blokdan çıxanda onlar hər ikisi ağlamağa başlayıblar. "Siz nə qədər yatırsız? Mən dondum"- bunu sürücü deyib. Təşəkkür əlaməti olaraq qız ona yolpulundan beş dəfə artıq məbləğ ödəyib.

# Köhnə bombalara görə bir şəhərin əhalisini köçürdülər

İtaliyanın Boloniya şəhəri və ətraf bölgələrinin sakinləri İkinci Dünya müharibəsi zamanı atılan bombaların qorxusundan evlərini tərk ediblər. 52 kiloluq Amerika istehsalı olan bəzi bombaların qalıqlarına Savena çayı sahilindəki ərazidə rast gəlinib. Bombanın olduqca təhlükəli yerləşməsinə görə sözügedən ərazidən 1.5 kilometr radiusda yerləşən bütün evlərdəki əhalini evakuasiya ediblər. Hərbi qüvvələrin köməyi ilə bu bombaları zərərsiz hala gətiriblər.



Sentyabr ayında İkinci Dünya müharibəsi dövründən qalan bombanın partlama təhlükəsinə görə İsveçr şəhərlərindən birinin əhalisi evakuasiya edilib. Bombanı qocalar evi ərazisini təmizləyən bağbanlar tapıblar.

# Qadın bir ay ağır narkotiklərdən istifadə etdi və...

Amerikanın Florida ştatında yaşlı bir qadın həkimə yoxlaması üçün metamfetamin gətirib. 73 yaşlı Barbara Li Rey həkimə bildirib ki, dərmanın ona göstərdiyi narkotik təsirindən çəkinib. O, həkimdən xahiş edib ki, onun durumunu yoxlasın. Həkimə içində krtistal əşyalar olan iki plastik paket verən qadına gələn cavab da gözlənilməz olub. Belə ki, ekspertiza onun təmiz metamfetamin olduğunu üzə çıxarıb. Polis hələ də müəyyənləşdirə bilməyib ki, qadın bu narkotikləri necə əldə edib. Rey həkimə etiraf edib ki, bir aydır metamfetamindən istifadə edir.

Qadını öncə yoxalamalar üçün xəstəxanaya, ardınca narkotik maddə saxlama və istifadə etmə suçuna görə məhkəməyə yönləndiriblər. Xəbər verilir ki, həbs zamanı qadın narkotik maddənin təsiri altında olub. Qadını türmədən iki gün sonra azad ediblər.

İyun ayında isə polisə metamfetamin gətirən kişi barədə məlumat verilmişdi. Onun narkotik olduğunu yoxlamaq üçün polisə müraciət edən kişini həbs etmişdilər. Buna səbəb onun qanunsuz narkotik daşıyıcısı olması idi.



# Ağlayan kimi ürəyi dayanan uşaq

İngiltərədə yaşayan 2 yaşlı qız uşağı Ava Fenton qorxu, həyəcan, kədər kimi güvvətli hisslər keçirəndə ürəyi dayanır, nəfəs ala bilmir. Bu mənada balaca qız həm şanslı, həm də şanssızdır. Neyçün ki, Ava nə edirsə, etsin, əsla danlanmır. Buna səbəb onun "reflex anoxic seizure" adlanan xəstəliyi daşımasıdır. Qızın Burveldə yaşayan anası, 38 yaşlı Natalie bildirib ki, ilk kriz zamanı şok keçirib: "Ölü kimi idi. Dərhal təcili yardıma müraciət etdik. Dərhal şüuru yenidən yerinə gəldi". Ana onu da söyləyib ki, əslində heç bir ana və ata uşağını danlamaq istəməz. Amma onlar uşaqlarını danlamadan, hər dediyini edərək tərbiyə etməkdə çətinlik çəkirlər: "Avayı tərbiyə etmək üçün zülm çəkirik".

İlk dəfə 6 aylıq olanda ürəyi dayanan Ava xüsusi müalicədən keçir. Uşağın nəbz atışı müəyyən bir səviyyəyə düşəndə süni ürək fəaliyyətə başlayır.




QOÇ - Bugünkü astroloji mənzərə yalnız sizin Zodiakdan olanlar üçün uğurlu səfərlər vəd edir. Bununla yanaşı, maliyyə məsələlərinin həllində də müəyyən irəliləyişlərə nail ola bilərsiniz.

BUĞA - Yeni əlaqələr yaratmaq üçün bütün gücünüzü axtarışlara həsr etməlisiniz. Bu gün sizə daha da əzmkarlıq göstərmək məsləhətdir. Nahardan sonra maraqlı görüşləriniz olacaq.

ƏKİZLƏR - Ümumi əhvalınızda aktivlik baş qaldırdığından neytral mövqedə dayanmamalısınız. İşlə bağlı planlarınızın həllini sürətləndirin. Nahar ərəfəsində sürprizlə rastlaşacaqsınız.

XƏRÇƏNG - Saat 16-ya qədər bütün planlarınızı reallaşdırmağa çalışın. Qərarlarınızda obyektiv olun ki, nəticədə udasınız. Axşam saatlarında qəlbinizə yaxın insanlarla bir araya gəlin.

ŞİR - Ailədaxili problemləriniz qabara bilər. Bunun qarşısını almaq üçün qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Sevgiyə xələl gətirən bütün neqativ hərəkətlərə son qoyun.

QIZ - Yalnız sənədləşdirmə və alış-veriş işi üçün uğurlarınız ola bilər. Saat 14-16 arası isə qazanc əldə etmək imkanınız yaranacaq. Şəxsi münasibətlər üçünsə gərgin gündür.

TƏRƏZİ - Saat 14-ə qədər münaqişəli situasiyalara cəlb olunma ehtimalınız yarandığından həmin müddəti yalnız ev şəraitində keçirməlisiniz. Sonrakı ərəfəni isə xoş ovqatda başa vuracaqsınız.

ƏQRƏB - Ümumi yorğunluğunuzu nəzərə alan ulduzlar günün əsas vaxtını istirahətə həsr etməyinizi məsləhət görür. Çox da uzaqda yerləşməyən ünvanlara qonaq getməyə də dəyər.

OXATAN - Böyük dəyişikliklər astanasındasınız. Daxili süstlüyünüz də səngiməkdədir. Elə addımlar atın ki, qarşınızdakı şanslardan bəhrələnin. Fəaliyyətdə uğurlarınız yaxınlaşmaqdadır.

OĞLAQ - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə ciddi məbləğdə pul xərcləməyəsiniz. Əks təqdirdə, ayın sonuna qədər problemləriniz olacaq. Nəzərə alın ki, tarixi seçim ərəfəsindəsiniz.

SUTÖKƏN - Bütün vaxtınızı görüş və əyləncələrə həsr etsəniz, bu təqvimdən xeyli razı qalacaqsınız. İştirak etdiyiniz məkanlarda çalışın ki, daha çox sevdiyiniz adamlarla birgə olasınız.

BALIQLAR - Hər mənada uğurlu gündür. İstər ailə-sevgi münasibətlərində, istərsə də məqsədlərə yetişmək istiqamətində uğurlarınız artacaq. Özünüzə güvənməklə çox zirvələri fəth edəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Təqaüdə çıxmaq sağlamlığa ziyandır

İngiltərəli alimlər daha bir yeniliyə imza atıblar. Təqaüdçülər işləməyə davam edən insanlardan daha çox depressiyalara və xəstəliklərə tutulurlar. İngilis alimləri araşdırmaları nəticəsində belə qənaətə gəliblər.



Alimlər sübut edib ki, pensiyaya çıxan insanların əqli və fiziki sağlamlığı daha tez pisləşir. Sübut olunub ki, təqaüdçülərdə klinik depressiyanın inkişafı 40 faiz, fiziki sağlamlıqlarının zəifləməsi isə 60 faiz təşkil edir. Bundan çıxış yolu olaraq isə alimlər hökumətin pensiya yaşını artırmasında görür. Onlar düşünürlər ki, bununla da hökumət insanlara daha çox sağlam qalmağa kömək edə bilər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100